QARABAĞ AZƏRBAYCANDIR!

## Zəngin irsi milli sərvətimiz olan Heydər Əliyev fenomeni



4

# Səs

№ 219 (6660) 30 noyabr 2022-ci il. Qiyməti 60 qəpik

## Rusiyanın regionları ilə Azərbaycan arasında əməkdaşlıq genişlənir



3

Prezident İlham Əliyev Rusiyanın Tatarıstan Respublikası Prezidentinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

# İki bacının bir yengəsi (?)

7




## MEDİA Agentliyi ilə Azərbaycan Dillər Universiteti arasında görüş keçirilib



10

## Milli Məclis "Siyasi partiyalar haqqında" yeni qanun layihəsini təsdiqlədi



9

## Ölkəmizdə kadr çatışmazlığı necə aradan qaldırılmalıdır?



5

## Daşınmaz əmlak qaydaları dəyişir



16

## Soyqırımına məruz qalan türk mənşəli tarixi toponimlərimiz



8

# "İkitərəfli əlaqələrimiz çox yaxşı səviyyədədir"

*Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Kabinet işləri nazirini qəbul edib*

**Prezident İlham Əliyev dünən Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Kabinet işləri naziri Məhəmməd bin Abdullah Əl Qərqavini qəbul edib. Məhəmməd bin Abdullah Əl Qərqavi Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın və vitse-prezident Şeyx Məhəmməd bin Rəşid Əl-Maktumun salamlarını və xoş sözlərini dövlətimizin başçısına çatdırıb.**

Prezident İlham Əliyev salamlara və xoş sözlərə görə minnətdarlığını bildirib, onun da salamlarını Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə və vitse-prezidentinə çatdırmağı xahiş edib.

Söhbət zamanı iki ölkənin liderləri arasında səmimi dostluq münasibətlərinin olmasının əlaqələrimizin inkişafında mühüm əhəmiyyət kəsb etdiyi vurğulanıb.

Məhəmməd bin Abdullah Əl Qərqavi Bakının gözəlliyinə və təmizliyinə heyran olduğunu bildirib, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin bütün sahələrdə əldə etdiyi nailiyyətlərin dost və qardaş ölkə olaraq BƏƏ-ni sevindirdiyini diqqətə çatdırəb. Qonaq ölkələrimizin aidiyyəti nazirlikləri və dövlət təşkilatları arasında da yaxın əməkdaşlıq əlaqələrinin qurulduğunu vurğulayıb.

Azərbaycana səfəri çərçivəsində "ASAN xidmət" mərkəzi ilə tanışlığını, bu konsepsiyanı böyük maraqla qarşıladığını, burada vətəndaşlara çox səmərəli və operativ xidmət göstərildiyinin şahidi olduğunu deyən Məhəmməd bin Abdullah Əl Qərqavi vətəndaş məmnunluğu prinsipi əsasında fəaliyyət göstərən "ASAN xidmət"in Azərbaycan Prezidentinin uzaqgörən və mükəmməl təşəbbüslərindən biri olduğunu məmnunluqla qeyd etdi, bu sahədə əməkdaşlığın vacibliyini bildirib.



Birləşmiş Ərəb Əmirliklərinin əldə etdiyi nailiyyətlərin də dost və qardaş ölkə olaraq Azərbaycanı sevindirdiyini diqqətə çatdıran dövlətimizin başçısı BƏƏ rəhbərliyi ilə dostluq münasibətlərini qeyd edib və ölkələrimiz arasında əməkdaşlığın əhəmiyyətini vurğulayıb. İkitərəfli əlaqələrimizin çox yaxşı səviyyəsindən çıxış edərək bərpaolunan enerji sahəsində əməkdaşlığın genişləndirildiyini deyən dövlətimizin başçısı bu xüsusda BƏƏ-nin aparıcı şirkətlərindən olan "Masdar"ın Azərbaycanda investisiya qoyuluşu layihəsini qeyd edib.

Prezident İlham Əliyev işğal dövründə ərazilərimizdə Ermənistanın törətdiyi dağıntılardan danışıb, hazırda Azərbaycanın həmin ərazilərdə ən müasir şəhərsalma konsepsiyası tətbiq olunmaqla həyata keçirdiyi bərpa-quruculuq işləri barədə məlumat verib. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Baş nazir Əli Əsədov Tatarıstan Prezidenti Rüstəm Minnixanov ilə görüşüb

***Noyabrın 29-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ölkəmizdə səfərdə olan Rusiya Federasiyası Tatarıstan Respublikasının Prezidenti Rüstəm Minnixanov ilə görüşüb. Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Tatarıstan arasında müxtəlif sahələrdə əlaqələrin inkişafından məmnunluq bildirilib, qarşılıqlı maraq doğuran istiqamətlər üzrə ikitərəfli əlaqələrin perspektivləri müzakirə edilib.***



Rüstəm Minnixanovun səfəri çərçivəsində Bakıda keçirilmiş Azərbaycan-Tatarıstan işgüzar forumunun əhəmiyyəti vurğulanıb. Tərəflər əmin olduqlarını bildiriblər ki, Azərbaycan ilə Tatarıstan arasında əməkdaşlıq bundan sonra da qarşılıqlı faydalı Azərbaycan-Rusiya tərəfdaşlığının daha da möhkəmlənməsinə şərait yaradacaq.

# "Ermənistanın guya Azərbaycanın mina təhdidinin səbəbkarı olduğunu iddia etməsi riyakarlığın son həddidir"

Sülh müqaviləsinin hazırlanması ilə bağlı suala cavabında Ermənistanın xarici işlər naziri bütün digər məsələlər kimi manipulyasiyaya yol verir. Yaxşı olardı ki, beynəlxalq ictimaiyyət arasında çaşqınlıq yaratmaq əvəzinə, Ermənistan naziri sülh müqaviləsinin hazırlanması barədə ilk təklifin kimdən gəldiyi, baza prinsiplərinin ilk olaraq kim tərəfindən verildiyi, sülh müqaviləsinin elementləri üzrə ilk layihənin Cenevrə görüşündə kim tərəfindən təqdim olunduğu, eləcə də hər bir layihəyə Azərbaycan və Ermənistanın hansı müddət ərzində rəy bildirdiyi məsələsinə aydınlıq gətirərdi və bununla daha dolğun mənzərə yaranardı. Bu barədə Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə bildirib.

"Ermənistan tərəfinin birtərəfli qaydada guya Azərbaycana bütün mina xəritələrini verdiyi və ən çox minalanmanın Azərbaycan tərəfindən həyata keçirildiyi barədə tamamilə əsassız iddialara gəldikdə qeyd edək ki, 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın imzalanmasından sonra, ilk 8 ay ərzində ümumiyyətlə mina xəritələrinin olmasını inkar edən Ermənistanın daha sonradan beynəlxalq təzyiq nəticəsində təqdim etdiyi kiçik qisim mina xəritələrinin etibarlılığının yalnız 25 faiz təşkil etdiyi məlumdur. Bununla yanaşı, son mina partlayışlarının təqribən 55 faizdən artıq hissəsinin Ermənistan tərəfindən təhvil verilən xəritələrdən kənar ərazilərdə baş verməsi və müharibədən sonra 268 nəfərin mina qurbanı olması bəllidir. Azərbaycan ərazilərini 30 il işğal altında saxlayan və keçmiş təmas boyu əraziləri tam olaraq minalayan Ermənistanın faktları təhrif edərək, guya Azərbaycanın mina təhdidinin səbəbkarı olduğunu iddia etməsi riyakarlığın son həddidir. Ermənistanda 2021-ci ildə istehsal olunmuş minaların Azərbaycan tərəfindən Ermənistanla sərhəd ərazilərdən çıxarılaraq nümayiş etdirilməsi iddiası isə ən azı minaların təmizlənməsi işinin delimitasiya olunmamış sərhəddə Ermənistanın hərbi mövqelərinin müşahidəsi altında həyata keçirilməsinin qeyri-mümkünlüyü nəzərə alınaraq, elementar məntiqə və hərbi biliklərə ziddir", - deyə XİN-in Mətbuat xidməti idarəsinin rəhbəri diqqətə çatdırıb.





## Filip Riker: "Birləşmiş Ştatlar Ermənistan ilə Azərbaycan arasında birbaşa dialoqu dəstəkləyir"

Mən Bakıya səfər etməkdən və Birləşmiş Ştatların Azərbaycandakı səfirliyindən sizinlə danışmaqdan məmnunam. Azərbaycanın potensialı nəzərə çarpır. Hər dəfə buraya döndüyüm zaman mən iqtisadiyyatın, insanların dayanıqlılığının və bütün Cənubi Qafqaz bölgəsi üçün imkanların artdığını müşahidə edirəm. Bu barədə ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Filip Rikerin videomüraciətində bildirilib.

Baş müşavir deyib: "Dövlət katibi Toni Blinken sülhün əldə olunması üçün imkana və Cənubi Qafqazın potensialına çox inanır. O, coğrafiyanın vacib olduğunu anlayaraq məndən bölgəyə səfər etməyi xahiş etdi. Mən indi Bakıdayam, buradan da Tbilisi və İrəvana səfər edəcəyəm. Bu bölgədə coğrafiya və tarix görüşür".

Sülh prosesinin asan olmadığını bildiklərini deyən Filip Riker qeyd edib: "Bilirəm ki, münaqişə hər iki tərəfdə illər boyu böyük çətinliklərə və əzaba səbəb olub. Lakin inanıram ki, dinc gələcək üçün olan bir ümid də var. Ümid edirəm ki, sülh danışıqları zamanı əldə edilən impuls qorunub saxlanıla və daha parlaq gələcəyin təminatı üçün tarixin yeni səhifəsi açıla bilər".

Hazırda gələcəyə baxan və davamlı sülhü əldə etmək istəyən hər iki ölkə tərəfindən real və cəsarətli addımların atıldığını müşahidə etdiyini vurğulayan baş müşavir bildirib: "Dövlət katibi Blinken qeyd etdiyi kimi, hər iki dövlət Cənubi Qafqazda daha firavan, dinc gələcəyi təmin etmək naminə çalışır. Birləşmiş Ştatlar Ermənistan ilə Azərbaycan arasında birbaşa dialoqu dəstəkləyir və əldə olunan impulsun yeni ildə də saxlanılmasına çağırır. Real proqres əldə olunub və sülh daha yaxşı və parlaq gələcək vəd edir. Mən sülhün əldə olunması üçün nümayiş etdirilən zəruri cəsarəti və qətiyyəti alqışlayıram".

# Rusiyanın regionları ilə Azərbaycan arasında əməkdaşlıq genişlənir

## Prezident İlham Əliyev Rusiyanın Tatarıstan Respublikası Prezidentinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

**Prezident İlham Əliyev noyabrın 29-da Rusiya Federasiyası Tatarıstan Respublikasının Prezidenti Rüstəm Minnixanovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Rüstəm Minnixanov Azərbaycana böyük nümayəndə heyəti ilə səfər etdiyini vurğulayaraq, nümayəndə heyətinin tərkibində çoxsaylı şirkətlərin təmsilçilərinin də olduğunu diqqətə çatdırıb, Rusiyanın regionları ilə Azərbaycan arasında əməkdaşlıq çərçivəsində Tatarıstanın da ölkəmizlə əlaqələrinin inkişaf etdiyini məmnunluqla bildirib.**



Bakının gözəlliyindən məmnunluğunu bildirən Rüstəm Minnixanov ölkəmizin sürətli inkişafını qeyd edərək Azərbaycanın sənaye potensialının artırılması istiqamətində görülən işləri vurğulayıb.

Dövlətimizin başçısı qeyd edib ki, iki ölkənin prezidentləri arasındakı dialoq əməkdaşlığımızın bütün sahələrdə inkişaf etdirilməsi üçün əsas istiqamətləndirici amildir. Azərbaycan Prezidenti cari il ərzində yüksəksəviyyəli qarşılıqlı səfərlərin önəminə toxunub, özünün Rusiyaya səfərlərinin, iki ölkənin qanunverici orqanları və hökumətləri səviyyəsində səfərlərin əhəmiyyətini vurğulayıb. Ölkələrimiz arasında münasibətlərin inkişafında regionlararası təmasların vacibliyini diqqətə çatdıran Prezident İlham Əliyev bu xüsusda Azərbaycan ilə Tatarıstan arasında əlaqələrin hərtərəfli inkişafını qeyd edib.

Görüşdə ”KamAZ”ın Azərbaycanda istehsalı məmnunluqla vurğulanıb, bu xüsusda işğaldan azad edilmiş Cəbrayılda ötən ilin oktyabrında Prezident İlham Əliyevin iştirakı ilə Araz vadisi sənaye zonasında ”KamAZ” ASC ilə ”Gəncə Avtomobil Zavodu” İstehsalat Birliyinin birgə servis mərkəzinin təməlinin qoyulmasının önəmi qeyd olunub. Görüşdə Azərbaycanda və Tatarıstanda fəaliyyət göstərən sənaye zonaları arasında əməkdaşlığa toxunulub, bu məsələlərin Bakıda keçirilən biznes forumda daha geniş müzakirə ediləcəyi bildirilib.

Söhbət zamanı Azərbaycan-Rusiya hərtərəfli əlaqələri çərçivəsində Azərbaycan ilə Tatarıstan arasında da energetika, neft-kimya, sərmayələr, nəqliyyat, logistika, sənaye korporasiyaları, humanitar, turizm, informasiya-kommunikasiya texnologiyaları və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair geniş fikir mübadiləsi aparılıb.



# Azərbaycan ilə Türkmənistan arasında ticarət dövriyyəsi artıb

## Prezident İlham Əliyev Türkmənistanın Baş nazirinin müavininin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

**Prezident İlham Əliyev noyabrın 29-da Türkmənistanın Baş nazirinin ticarət kompleksi üzrə müavini Batır Atdayevin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Batır Atdayev Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun salamlarını və ehtiramını Prezident İlham Əliyevə çatdırıb. O qeyd etdi ki, Azərbaycan Prezidentinin bu ilin iyununda Aşqabadda Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısında iştirak etmək üçün Türkmənistana səfərinə ölkəsində böyük önəm verilir.**

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Sərdar Berdiməhəmmədova çatdırmağı xahiş edib.

Görüşdə Azərbaycan-Türkmənistan ikitərəfli əlaqələrinin inkişafından məmnunluq bildirildi, ölkələrimiz arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın bu gün Bakıda keçiriləcək iclasında müzakirə ediləcək məsələlər qeyd olunub, energetika, nəqliyyat, logistika, malların qarşılıqlı təchizatı məsələləri barəsində fikir mübadiləsi aparılıb.

Söhbət zamanı Azərbaycan ilə Türkmənistan arasında ticarət dövriyyəsinin artdığı qeyd edildi, qarşıdakı dövrdə bu dövriyyənin daha da genişlənməsi üçün birgə layihələrin həyata keçirilməsinin vacibliyi vurğulanıb. Eyni zamanda, gəmiqayırma, gəmi təmiri və digər sənaye sahələrində əməkdaşlıq imkanları müzakirə edilib.

# İtaliya mətbuatı xarici beyin mərkəzləri rəhbərlərinin Bakı konfransından yazır

**İtaliyanın aparıcı kütləvi informasiya vasitələri noyabrın 24-26-da Bakıda, ADA universitetində keçirilən ”Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat” mövzusunda beynəlxalq konfrans barədə informasiyalar yayıblar. Məlumatlarda Prezident İlham Əliyevin konfrans iştirakçılarının suallarını ətraflı cavablandırdığı qeyd olunub.**

Bildirilib ki, Prezident İlham Əliyev konfrans zamanı Azərbaycan-İtaliya münasibətlərindən bəhs edib, İtaliyanın rəsmi Bakı ilə Strateji Tərəfdaşlıq Bəyannaməsi imzalayan Avropa İttifaqına üzv 9 ölkədən biri olduğunu diqqətə çatdırıb. Dövlətimizin başçısının, həmçinin İtaliya-Azərbaycan Universitetinin yaradılması ilə bağlı sənədlərin mübadiləsinin həyata keçirildiyini qeyd etdiyi bildirilib.

Qeyd olunub ki, Prezident İlham Əliyev çıxışında TAP boru kəmərinin İtaliyanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm əhəmiyyət daşıdığını deyib, təbii qaz ixracının həcminin artırılması üçün bu kəmərin imkanlarının genişləndirilməsinin vacibliyini vurğulayıb.

Yazılarda bu ilin iyulunda Prezident İlham Əliyev ilə Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen arasında imzalanan Anlaşma Memorandumuna da toxunulub, sənəddə Azərbaycanın təkcə qaz təchizatçısı kimi deyil, elektrik enerjisi və ”yaşıl hidrogen” daxil olmaqla, hidrogen təchizatçısı kimi çıxış edə biləcəyi də qeyd edilib.

Eyni zamanda, Azərbaycanla İtaliya arasında ikitərəfli münasibətlərin əla səviyyədə olduğu, Azərbaycanın öz öhdəliklərinə sadiq qaldığı bildirilib, ölkəmizin rəsmi Romanın yeni hökuməti ilə də strateji əməkdaşlığın davam etdirəcəyinə inam ifadə olunub.









# Zəngin irsi milli sərvətimiz olan Heydər Əliyev fenomeni

## Dövlət başçısının Sərəncamına əsasən, "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı" təsdiqlənib



Yaşadığımız tarixi gerçəkliklərin müqayisəsi Ümummilli Lider Heydər Əliyevin müdrik və uzaqgörən idarəçiliyi, fonemen bir siyasətçi olduğunu bir daha təsdiqləyir. Tarixin axarını dəyişən ideya və prinsiplərin daşıyıcısı olan Ulu Öndər Heydər Əliyevin idarəçilik keyfiyyətləri, xarizmatik liderlik cəhətləri Azərbaycan tarixinin möhtəşəm səhifələrini yazıb. Ötən əsrin 70-ci illərindən etibarən milli ideyanın yüksəlişinin təmin edilməsində böyük xidmətləri olan Ümummilli Lider Heydər Əliyevin həyata keçirdiyi siyasətin məntiqi olaraq Azərbaycan sözün əsl mənasında yeni yüksəliş dövrünü yaşayıb. İqtisadi asılılığın aradan qaldırılmasının siyasi müstəqilliyin təməlində duran əsas amillərdən biri olduğunu aydın görən Ulu Öndər ölkənin istehsal potensialının mühüm hissəsinin ittifaq şəbəkəsindən ayrılaraq əsaslı şəkildə müstəqilləşdirilməsi, sənaye potensialının gücləndirilməsi, xalqın gələcəyini nəzərdə tutan milli kadr potensialının yaradılması kimi möhtəşəm nailiyyətlərə imza atıb.Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilib. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir. Tarixin dönəmləri bir daha təsdiqləyir ki, Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycanın ictimai-siyasi, mədəni həyatında uğurları ilə əbədiləşən Ulu Öndər Heydər Əliyev xalqın düşüncə tərzində, oyanışında müstəsna rol oynamış Siyasi Liderdir. Bu gün Onun Azərbaycana rəhbərlik etdiyi dövrü vərəqlədikcə, Ulu Öndər Heydər Əliyev zəkasını, düşüncəsini, müdrikliyini, böyüklüyünü bir daha hiss edir, Ümummilli Liderin respublikamız və xalqımız üçün misilsiz xidmətlər göstərdiyinin şahidi oluruq. Ulu Öndər Heydər Əliyevin 1969-cu ildə Azərbaycana rəhbərlik etdiyi dövrdən etibarən, Azərbaycanın iqtisadi inkişafının əsaslarının yaradılması, zəngin iqtisadi potensialının ölkənin gələcək inkişafına və xalqın rifahının yüksəlməsinə yönəldilməsi prosesinə başlanıldı. Ulu Öndər Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinə rəhbərlik etdiyi dövr ərzində respublikanı geridə qalmış və yalnız xammal mənbəyi sayılan aqrar respublikadan inkişaf etmiş sənaye respublikasına çevirməyə müvəffəq oldu. Kənd təsərrüfatının və sənayenin, iqtisadiyyatın digər sahələrinin inkişafında, sosial məsələlərin həllində və əhalinin rifah halının yaxşılaşdırılmasında böyük irəliləyiş əldə edildi.

### ÖLKƏMİZ DEMOKRATİYA, HÜQUQİ DÖVLƏT QURUCULUĞU YOLU İLƏ İRƏLİLƏDİ, XALQ BİRLİYİ YARANDI

Sovet rejiminin bütün xüsusiyyətlərinə dərindən bələd olan və zəngin idarəçilik təcrübəsi qazanmış Ulu Öndər Heydər Əliyev Azərbaycanı düşmüş olduğu çox ağır vəziyyətdən çıxarmaq üçün qəti addımlar atmağa başladı. O, dahiyanə uzaqgörənliklə, dərindən ölçüb-biçərək ölkənin uzunmüddətli, dinamik və hərtərəfli inkişafını təmin edən kompleks inkişaf proqramları hazırlatdı və dərhal onların icrasına başlandı. Böyük Siyasətçi iqtisadiyyat, o cümlədən, kənd təsərrüfatı və mədəniyyətin müxtəlif sahələrində öz Vətəninin, xalqının inkişafı üçün zəruri olan ən vacib məsələlər barədə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosu, Mərkəzi Komitənin plenumları, Kommunist Partiyasının qurultayları səviyyəsində əlverişli qərarlar qəbul edilməsinə nail olur. Azərbaycanı özü-özünü təmin edə bilən, müstəqil yaşamağa qadir olan və elmi-texniki cəhətdən yüksək tərəqqi etmiş bir ölkəyə çevirmək yolunda qətiyyətli mübarizə aparırdı. Tarixən qısa bir dövr ərzində, bütövlükdə, respublika ərazisində yüzlərlə zavod, fabrik və istehsalat sahələri yaradıldı. 213 iri sənaye müəssisəsi işə salındı. Bir çox mühüm istehsal sahələrinə görə Azərbaycan Sovet İttifaqında aparıcı yerlərdən birini tuturdu. Azərbaycanda istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu. Bu illərdə istehsal olunan sənaye məhsulları öz həcminə görə əvvəlki 50 ildəkinə bərabər idi. Həmin illərin Azərbaycanı nəhəng bir tikinti meydanını xatırladırdı. Bakının və respublika rayonlarının siması büsbütün dəyişmişdi.

Ölkəmiz demokratiya, hüquqi dövlət quruculuğu yolu ilə irəlilədi, xalq birliyi yarandı. Müstəqilliyimizin ilk illərində hakimiyyətdə olan və bir-birini əvəz edən səriştəsiz siyasi qüvvələr respublikadakı vəziyyəti daha da ağırlaşdıraraq təhlükəli böhran vəziyyətinə çatdırmışdılar. Ölkəni bürümüş dərin siyasi, iqtisadi, sosial böhran xalqın qabaqcıl hissəsi olan ziyalıları, tanınmış insanları son dərəcə narahat edirdi. Xalqı bütövlükdə, uçuruma sürükləyən məqamlar istər ölkə daxilində, istərsə də xaricində onun sütunlarını zəifl ətməyə başlamışdı. İqtisadiyyatımız böhranlı vəziyyətə gəlib çatmış, işsizlik, demək olar ki, kütləvi hal almışdı. Bunun nəticəsi olaraq əhalinin yaşayış səviyyəsi minimum səviyyəyə çatmışdı. Ölkənin ictimai-siyasi həyatında anarxiya, xaos hökm sürürdü. Bütün bu və ya digər hadisələr göstərir ki, Azərbaycanın dünyanın siyasi xəritəsindən silinmək ehtimalı olduğu zamanda xalq çıxış yolu axtararaq mövcud vəziyyəti nizama salmaq yollarını araşdırdı. Bütün diqqət Ulu Öndər Heydər Əliyevə yönəlmişdi. 15 İyun 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ölkəni düçar olduğu vəziyyətdən çıxardı. Ölkəmiz demokratiya, hüquqi dövlət quruculuğu yolu ilə irəlilədi, xalq birliyi yarandı. Azərbaycan cəmiyyətində dövlətçilik ideyalarının bərqərar olması fundamental mahiyyət kəsb etməyə başladı. Ulu Öndərin Azərbaycan dövlətçiliyi qarşısında tarixi xidmətlərindən biri də dövlət quruculuğunun hüquqi bazasının yaradılması oldu. Belə ki, 1995-ci ildə qəbul olunmuş konstitusiya Azərbaycan Respublikasının dövlət quruculuğunun əsaslarını formalaşdırdı. Azərbaycan demokratik-hüquqi və dünyəvi dövlət kimi, ilk dəfə olaraq, insan hüquqlarının prioritetliyini və hakimiyyət bölgüsünü özünün gələcək inkişaf yolu kimi seçdi. Dahi Öndər Heydər Əliyevin müəllifliyi ilə hazırlanmış və ümumxalq səsverməsi nəticəsində qəbul olunmuş bu ali Sənəd müstəqil Azərbaycan Konstitusiyası kimi tarixə yazıldı. 1995-ci ildə müstəqil Azərbaycanın ilk parlamentinə keçirilən seçkilər isə dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar açdı. Milli neft strategiyasının əsası qoyuldu. "Əsrin müqaviləsi" imzalandı. Neft strategiyasının beynəlxalq layihələrin və iqtisadi proqramların həllinə doğru istiqamətləndirilməsi ölkəmizdə bu tükənməz sərvətdən əldə olunan gəlirin qat-qat artırılmasına rəvac verdi.

### XALQIMIZ YENİ ƏSRƏ, MƏHZ HEYDƏR ƏLİYEV ZƏKASININ İŞIĞINDA QƏDƏM QOYDU

Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ermənistan - Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Dövlətçilik salnaməmizdə silinməz izlər salmış olan Heydər Əliyev azərbaycanlı olması ilə ömür boyu fəxr etmişdir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı - Milli Qurtuluş Günü kimi qeyd edir. Azərbaycanda bu gün müstəqil dövlətçilik ənənələri formalaşdırılmışdır və şübhəsiz ki, bu mühüm nailiyyətin əldə edilməsində Ümummilli Lider Heydər Əliyevin fədakar xidmətlərinin müstəsna əhəmiyyəti vardır. Onun siyasi xadim olaraq yürütdüyü siyasətin başlıca qayəsi Azərbaycanı hər bir vətəndaşının təhlükəsizliyini qoruya biləcək qədər qüdrətli dövlətə çevirmək olmuşdur. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə, məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

### BU GÜN AZƏRBAYCANI İNAMLA GƏLƏCƏYƏ DOĞRU APARAN YOL DAHİ ÖNDƏRİN MÜƏYYƏNLƏŞDİRDİYİ YOLDUR

Bu gün Azərbaycan Prezidenti İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin siyasi xəttinə sadiq qalaraq, müstəqil ölkəmizi inamla gələcəyə doğru aparır. Bu yol Dahi Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi yoldur. Dövlət başçısının Sərəncamı ilə "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 29 sentyabr tarixli 3494 nömrəli Sərəncamına uyğun olaraq"Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı" təsdiq edilib. Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti Azərbaycan Respublikası Prezidentinin Administrasiyası həyata keçirəcək. Tədbirlər planına uyğun olaraq Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Xarici İşlər Nazirliyi, İqtisadiyyat Nazirliyi, Elm və Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Diasporla İş üzrə Dövlət Komitəsi, Heydər Əliyev Mərkəzi tərəfindən "Heydər Əliyev İli" ilə bağlı yerli və beynəlxalq əhəmiyyətli forum, konfrans, simpozium, dəyirmi masa və seminarlar keçiriləcəkdir. Tədbirlər planı çərçivəsində 2023-cü ildə bu və ya digər təşkilatlarla birgə yerli və xarici mediada Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən veriliş, sənədli film və videoçarxların nümayiş etdirilməsi, müsahibə və məqalələrin dərc edilməsi nəzərdə tutulub. Azərbaycan Respublikasının şəhər və rayonlarında elm və mədəniyyət xadimlərinin, tanınmış ziyalıların iştirakı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş tədbirlər təşkil edilərək, Ulu Öndərin ictimai-siyasi fəaliyyətinə nəzər salınacaqdır. Bütün bunlarla yanaşı, Azərbaycanın şəhər və rayonlarında "Heydər Əliyev İli"nə həsr olunmuş müxtəlif müsabiqələr, sərgi, festival və düşərgələr, konsert və tamaşalar təşkil olunacaq."Heydər Əliyev İli" çərçivəsində sosial dəstək tədbirlərinin və xeyriyyə aksiyalarının keçirilməsi, ağacəkmə aksiyalarının keçirilməsi və abadlıq işlərinin aparılması və s. silsilə tədbirlər təşkil ediləcəkdir. Bütün bunlar Ulu Öndər Heydər Əliyev irsinin öyrənilməsində xüsusi əhəmiyyət kəsb edəcəkdir. Azərbaycanın inkişafında qazandığı uğur və nailiyyətlərin davamlı olmasını təmin etmək üçün böyük fədakarlıq göstərən Ulu Öndər Heydər Əliyev tariximizin müstəqillik təməllərini möhkəmləndirib və belə bir şəxsiyyətin irsi zaman-zaman öyrəniləcəkdir.

**Zümrüd BAYRAMOVA**

# Ölkəmizdə kadr çatışmazlığı necə aradan qaldırılmalıdır?













ARAŞDIRMA

**2030-cu ilədək dünyada yüksək ixtisaslı mütəxəssislərin böyük çatışmazlığı yaşanacaq. Əmək bazarında belə bir disbalans Qlobal İnstitutların tədqiqatçıları tərəfindən proqnozlaşdırılır. 2010-2030-cu illərdə işçi qüvvəsinin artımı təxminən 1%-ə qədər yavaşlayacaq.**

Tədqiqatçıların sözlərinə görə, 2020-ci ilə qədər qlobal iqtisadiyyatda 38-41 milyon kollec və universitet məzunu və 45 milyon yarımixtisaslı mütəxəssis (orta təhsil və peşə təhsili) yox olacaq. Lakin iş yerlərindən daha çox ixtisassız işçilər olacaq.

Ölkəmizdə daha çox hansı sahələrdə kadra ehtiyacı yaşanır?

SİA mövzu ilə bağlı araşdırma edib. Aparılan araşdırmalara görə səhiyyə, iqtisadiyyat, turizm, aqrar sahələrində ciddi şəkildə kadra ehtiyacımız var. Azərbaycandakı şirkətlərdə kifayət qədər vakansiyalar var ki, işə götürənlər aylarla, illərlə bu işlərə kadr tapa bilmirlər. Lakin təcrübələri olmadığından bir çox şirkətlər yerli kadrlarla yox, məhz xaricdən gələn mütəxəssislərə üz tuturlar. Azərbaycanda işsizlik səviyyəsini aşağı salmaq üçün gəncləri işə götürmək lazımdır.

Gəncləri işə götürən şirkətlərə vergi güzəştləri tətbiq etmək, gənc kadrlara iş təklif etmək, onların lazımi ixtisasa yiyələnməsi üçün tədris mərkəzləri yaratmaq lazımdır.

İqtisadçı Elçin Rəşidov:" Əgər hər hansı sahədə kadr çatışmazlığı yaşanırsa, həmin sektora geniş şəkildə diqqət yetirmək lazımdır. Sektorda tələb olsa da, bəzən tələbatı ödəyə bilmirlər və gedib başqa yerlərə müraciətlər olunur. Necə ki dövlət neft şirkəti öz daxili kadr yetişdirə bilmir və BiPidən kadr alır, eləcə də aqronom sektorunda böyük istixanaları olan şirkətlər belə kadrları xaricdən götürüb gətirirlər. Tibb sahəsi də kadr çatışmazlığı yaşayan sahələrdən biridir. Orada hazırda güclü informasiya assimilyasiyası var. Tibb sektorunda insanlar yaxşı cərrahlar pis cərrahın fərqini yalnız reklamlara baxıb qərar verirlər. Bu zaman dövlət özü bir layihə hazırlamalıdır ki, orada hər bir həkimin öz sahəsi üzrə reytinqi düzgün müəyyən oluna bilsin. Vətəndaşlarımız tibb sahəsində daha çox xaricə üz tuturlar. Türkiyə, İsrail, Almaniya , İran hətta Rusiya kimi ölkələrə müraciətlər daha çox edilir. Hansı ki, o ölkələrdən bizim ölkəyə demək olar heç bir xəstə müraciət etmir. Bu sahədə öz kadrlarımıza düzgün meyarlar qoyub, onların reytinqini müəyyən etsək həmin insanlar xaricə yox, məhz ölkə daxilində müalicələrə üz tutarlar. Bu həm maddiyyat baxımından, həm də məsafə baxımdan daha rahat və əlçatan olar. Azərbaycanda çatışmayan kadrlardan biri aqranomlardır. Ölkəmizə Türkiyədən və başqa xarici ölkələrdən aqronomlar gətirilir. Onlar xidmətlərini şirkətlərə və ya ayrı-ayrı bağbanlara göstərirlər. Azərbaycan özü əslində, aqronom yetişdirmir, sadəcə, tələbələrə aqranom diplomu verilir. Gəncə şəhərində yerləşən Azərbaycan Dövlət Aqrar Universitetinə dövlətin dəstəyi çox böyükdür. Kənd Təsərrüfatı Nazirliyi bu ali təhsil müəssisəsinə başqa universitetlərin görmədiyi dəstəyi verir. Eyni zamanda Avropa İttifaqı , BMT kimi xarici qurumlar, təşkilatlar o cümlədən Dünya Bankı tərəfindən müxtəlif layihələrlə bu universitetə nəhəng dəstək göstərilir, lakin gənclərin bu sahəyə marağı az olduğundan daha çox başqa sahələrə üz tutulur".

***Havar Şəfiyeva***





# “Narkomaniyaya qarşı mübarizədə gənclərin rolu”

*Sumqayıtda bu mövzuda geniş tədbir keçirilib*







**Noyabrın 29-da Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatının, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun və ”Azərbaycan Televiziyası və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin 2022-ci ilə dair imzalanmış birgə Tədbirlər Planına uyğun olaraq YAP Sumqayıt şəhər təşkilatında ”Narkomaniyaya qarşı mübarizədə gənclərin rolu” mövzusunda maarifləndirici tədbir keçirilib.**



Tədbiri giriş sözü ilə açan YAP Sumqayıt



şəhər təşkilatının sədri, partiyanın İdarə Heyətinin üzvü Ramiz Hüseynov bildirib ki, narkomaniya ilə mübarizə sağlam cəmiyyətin formalaşması baxımından müstəsna əhəmiyyətə malikdir. Cəmiyyətdə ”ağ ölüm” kimi tanınan narkomaniya bəlası insan həyatında sağalmaz fəsadlar yaradır. Onun sözlərinə görə, Azərbaycanda narkomaniyaya qarşı sistemli mübarizə aparılır. Bu tədbir də dövlətimizin başçısının təsdiq etdiyi ”Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı”nın icrasına uyğun olaraq keçirilir.

Çıxış edən YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsi müdirinin müavini Zəkiyyə Musayeva bildirib ki, narkomaniya ilə mübarizə və onun profilaktikası mühüm məsələ olmaqla yanaşı, sağlam gəncliyin yetişməsində ən vacib amillərdən biridir. Onun sözlərinə görə, gənclərin bu kimi vərdişlərdən uzaq olması üçün maarifləndirmə tədbirləri davamlı olmalıdır. Elmli, bilikli gənclərin digər həmyaşıdlarının zərərli vərdişlərdən uzaqlaşmasında oynaya biləcəyi rol danılmazdır.

Sumqayıt Şəhər İcra Hakimiyyəti (ŞİH) başçısının birinci müavini, ŞİH başçısı yanında fəaliyyət göstərən Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə komissiyasının sədri Teymur Səmədov narkomaniya ilə mübarizədə milli qanunvericiliyin rolundan bəhs edib. T.Səmədov qeyd edib ki, hələ 1996-cı ildə ulu öndər Heydər Əliyev narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəyə həsr olunmuş fərman imzalayıb. 1999-cu ildə isə Milli Məclis tərəfindən ”Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında” Qanun qəbul olunub. Azərbaycan Prezidenti İl-



ham Əliyev isə bu istiqamətdə bir neçə dövlət proqramı təsdiq edib. T.Səmədov Sumqayıt şəhərində gənclərin asudə vaxtının səmərəli təşkili, idmanla məşğul olmaları üçün bütün şəraitin yaradıldığını diqqətə çatdırıb. Bu da onların zərərli vərdişlərdən uzaq olmaları üçün vacib amildir.

Tədbirdə, həmçinin Sumqayıt Şəhər Polis İdarəsinin rəis müavini, polkovnik-leytenant Anar Əliyev və idarənin Yetkinlik yaşına çatmayanlarla profilaktik işin təşkili bölməsinin əməkdaşı, polis mayoru Azər Bağırov çıxış edərək narkomaniyaya qarşı mübarizə tədbirlərindən danışıb, gənclərin bu zərərli vərdişin qarşısının alınmasında rolundan bəhs ediblər.

Sonra Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun əməkdaşı Şahin İsmayılov slaydlar vasitəsilə məlumatlar təqdim edib. O qeyd edib ki, dövlət tərəfindən bu sahədə zəruri tədbirlər həyata keçirilir: ”Narkotik vasitələrin, psixotrop maddələrin və onla-





rın prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı”nın bir çox bəndləri məhz maarifləndirmə məsələlərinə həsr olunub. Narkomaniya insanın həyatını məhv edir. Narkotik maddələrdən asılılıq insanın ailəyə, cəmiyyətə bağlılığını azaldır və nəticədə onu cəmiyyət üçün faydasız fərdə çevirir. Cəmiyyətlə şəxsiyyət arasındakı əlaqənin pozulması təkcə onun özünə deyil, həm də ətrafına mənfi təsir göstərir. Belə gənclər öz yaxınlarını da narkotik maddələrin istifadəçisinə çevirirlər. Buna görə də gənclər narkomaniyanın nə qədər zərərli, təhlükəli olduğunu bilməlidirlər”.

Daha sonra tədbir diskussiya şəraitində davam edib, gənclərin sualları cavablandırılıb.

Xatırladaq ki, Prezident İlham Əliyev tərəfindən təsdiq olunmuş ”Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı”nın icrası ilə əlaqədar Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatı, ”Azərbaycan Televiziyası və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyəti, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu arasında 2022-ci ilə dair birgə Tədbirlər Planı imzalanıb. Tədbirlər Planı çərçivəsində narkomaniyaya qarşı mübarizə sahəsində maarifləndirmə işinin aparılması məqsədilə bu istiqamətdə dəyirmi masaları, idman yarışlarının, mədəni-kütləvi tədbirlərin keçirilməsi davam edir.

TƏRS BAXIŞ+SARKAZM

# İki bacının bir yengəsi (?)

## Yaxud, İran Fransa-Ermənistan cütlüyünə necə qahmar çıxır?

**Belə bir deyim var ki, düşmənimin-düşməni mənim dostumdur. Əslində, bu, bir reallıqdır və həmin reallıq son zamanlar Cənubi Qafqaz regionunda cərəyan edən hadisələr çərçivəsində özünü daha qabarıq, hətta daha açıq mənzərədə ehtiva edir. Söhbət İranın "İslam Respublikası" adı altındakı teokratik rejiminin get-gedə artan, hətta daşıbcoşan anti-Azərbaycan xarakterli ritorikalarını artıq bir siyasi mexanizm kimi işə salmasıdır.**





Ümumiyyətlə, Azərbaycan xalqı torpaqlarının işğala məruz qaldığı üç onillik boyunca təcavüzkar Ermənistana havadarlıq edən mollakratların xain əməllərinə qarşı daim hiddət və qəzəblə yanaşıb. Xüsusilə, qəbirlərin dağıdılması, məscid və pirlərin donuzxanalara, mal-qara tövlələrinə çevrilməsi kimi faktlar hər bir azərbaycanlıda bu sualı yaradırdı: axı 30 il (!) işğalda qalan torpaqlarda azərbaycanlıların ev-eşiklərini çapıb-talayan, satan ermənilərlə işbirliyinə gedən sözdə müsəlman iranlılar (əslində, farslar) gözləri önündə təhqir edilən məscidlərin vəziyyətini görmürdülərmi? Niyə onlar bu faktlara qarşı cınqırlarını belə çıxarmırdılar? Hə, bunun da "səbəbləri" var idi - axı "qohum xalq" adlandırdıqları haylar onlara azərbaycanlıların evlərindən söküklələri tikinti materiallarını, oğurladıqları əşyaları satmaqdan vaz keçərdilər..!


New Eastern Europe
Cart (0)
HOT TOPICS ANALYSIS STORIES AND IDEAS TALK EASTERN EUROPE DONATE TO NEE

The Iranian-Armenian-Russian axis and the war in Ukraine

*Iran's ongoing supply of drones for Russia's war effort against Ukraine has made headlines around the world. However, what is not being talked about is Armenia's involvement in this alliance. Yerevan now faces a crucial decision regarding its future as a democratic state.*

November 28, 2022 - Taras Kuzio -





### Zatən Senatın çıxardığı məşum qətnamə, Emmanuel Makronun Nikol Paşinyanla sarmaş-dolaş məhəbbətləri də başqa cür düşünməyə zəmin yaratmır...

Bu gün yuxarıda qeyd edildiyi kimi, Azərbaycan əleyhinə çıxış edən və özünü "Avropanın demokratiya beşiyi" adlandıran Fransa erməni faşizminə, ultramillətçiliyinə, ekstremizminə, terroruna mala vurur, ən əsası isə regionda sülhün bərqərar olmasına qarşı hər vəchlə maneələr yaradır. Zatən Senatın çıxardığı məşum qətnamə, Emmanuel Makronun Nikol Paşinyanla sarmaş-dolaş məhəbbətləri də başqa cür düşünməyə zəmin yaratmır. Necə deyərlər, ələhəzrət fakt ortadadır! Amma...

Amma daşımağa layiq olmadığı əmmaməsini başına qoyub, əbasını əyninə geyinərək Fransa-Ermənistan cütlüyü ilə eyni mövqedən çıxan fars şovinistlərinə artıq yeni ad qoymağın zamanı çatdı - Azərbaycan Prezidenti həmin tandemi hədəfə almaqla ən doğru ifadəsini bəyan etdi: Fransa və Ermənistan bacıdırlar! Biz isə həmin fikri nəinki dəstəkləməklə, həm də təkmilləşdirməklə bu iki bacının bir yengəsinin olması vacibliyini önə sürürük. Bəli, əsla yanılmadınız, Fransa-Ermənistan bacılarının bir yengəsi var, o da ki, İrandır!

### Fransanın balaca və əxlaqsız bacısına daha bir yengəlik namizədi var..?

Düzdür, biz buraya daha bir mümkün yengəçilik faktorunu da əlavə edə bilərik. Məsələn, Rusiyanı. Amma haraya çevirirsənsə-çevir, iki qoçun başı bir qazanda qaynamır ki, qaynamır. Halbuki, qaynamaq ehtimalı da istisna edilmir.

Məsələn, Fransanı hələlik (!) qoyuruq bir kənara və onun balaca və əxlaqsız bacısı Ermənistanın siyasi yataqda icad etdiyi detallarını araşdırırıq. Bu günlərdə "New Eastern Europe" nəşri yazır ki, Ermənistan İrana Rusiyanı silahla təchiz etməsinə hansı üsullarla yardım göstərir. SİTAT: "Ermənistan Moskva və Tehran ilə müttəfiqlik münasibətlərini dəstəkləməklə İran silahlarının Rusiyaya çatdırılmasında mühüm rol oynayır və həmin silahlar sonradan Ukraynada davam edən hərbi əməliyyatlarda istifadə olunur. Son aylarda İranın bir neçə hərbi yük təyyarəsi Rusiyaya İrəvan üzərindən keçib və ehtimal var ki, bu vasitə ilə Ukrayna şəhərlərini atəş altında saxlamaq üçün geniş istifadə edilən "Şahed" PUA-larını çatdırıb".

Adıçəkilən nəşr onu da yazıb ki, ABŞ bundan əvvəl Ermənistana sözügedən məsələ ilə bağlı xəbərdarlıq edərək bildirib ki, İrəvanın Rusiya və İran rejimləri ilə əməkdaşlığı təhlükəlidir. Lakin o da qeyd edilib ki, belə davam edərsə Ermənistana qarşı da hər hansı yöndə sanksiyalar qəbul oluna bilər. Bu da öz yerində...

Ancaq burada Rusiyanın da Ermənistana müəyyən dərəcədə yengəlik etmək cəhdləri zaman-zaman görünməkdədir. Yəni Ermənistan öz "yatağı" üzərindən Rusiyaya silah daşınmasını təmin edir və qarşılığında ehtirasnı doyduran hədiyyələrini alır. Misal üçün, Rusiya sülhməramlıları kontingentinin (RSK) müvəqqəti olaraq Qarabağda yerləşmiş komandanlığının Laçın yolu vasitəsi ilə Ermənistandan hərbi məqsədli yüklərin daşınmasını təmin etməsi faktının ortada olması - bu da rusların ermənilərə verdikləri hədiyyədir desək yanılmarıq.

### Belə davam edərsə, elə İranın da yengəlik funksiyaları böyük sual altında qalacaq...

Fəqət, qayıdaq əsas yengəyə - İrana. Başıəmmaməlilərin başları ermənilərlə fransızlara yengəlik etməyə o qədər qarışıb ki, artıq 70-80 günə yaxındır ölkələri daxilində baş verənləri də unudurlar. Halbuki baş qaldıran qiyamlar, üsyanlar artıq qarşısıalınmaz mübarizə tendensiyasına keçid alıb. Məhz bu mənada da deyə bilərik ki, belə davam edərsə elə İranın da yengəlik funksiyaları böyük sual altında qalacaq. Çünki bu cür yengəliklər bütövlükdə teokratik rejimin nəfəsini kökündən kəsmək dərəcəsinə qədər gəlib-çatıb. Milyonlarla Cənubi Azərbaycan soydaşlarımız həmin yengəliyin davamına imkan verməyəcəklər. Milli hökumətimiz də qurulacaq, müstəqillik də qazanılacaq. Bax onda yengəlik faktorunun bir üstündən və bir də altından ağır daş qoyulacaq. Nəticədə iki əxlaqsız bacılar - Fransa və Ermənistan ər evindən başıqırxılmış üzüqara gəlinlər kimi geri qaytarılacaq. Onda da çox gec olacaq. Hələ yuxarıda qeyd etdiyimiz digər yengəlik statusuna malik olmağa cəhd edən Rusiya da onların üzlərinə belə baxmayacaq. Axı gerçək yengəliyin də öz qayda-qanunları var...

***Rövşən RƏSULOV***

# Soyqırımına məruz qalan türk mənşəli tarixi toponimlərimiz

*Prezident İlham Əliyev: "Qədim Azərbaycan yaşayış məntəqələri əsl adları ilə də çağırılmalıdır"*





Ermənilər tərəfindən tarixi adlarımızın saxtalaşdırılması onların xislətinin, ”milli xüsusiyyətlərinin” təzahürüdür. Belə ki, saxtakarlıq tarixən ermənilərin mənimsədiyi dəyər, özünəqiymətidir. Əlbəttə ki, tarixən Azərbaycan ərazilərinin - şəhər, kənd və qəsəbələrinin adlarını saxtalaşdıraraq özünküləşdirmələri nəticəsində olmayan ərazilərini yaradaraq, hansısa bir formada sərhəd yaradaraq, coğrafi ərazilərini müəyyənləşdirmişdilər. Ermənilərin Azərbaycana qarşı işğalçılıq siyasəti iki əsrlik tarixi dövrü əhatə edir ki, bu zaman məsafəsində təkcə ərazi iddiaları ilə təcavüzkar siyasətlərini davam etdirməyib, eyni zamanda, mədəni irsimizə, milli-mənəvi dəyərlərimizə göz dikib, onları özününküləşdirməyə çalışıblar. Bütün bunlarla yanaşı, neçə əsrlərdir ki, Azərbaycan toponomlərinə qarşı təcavüzkar siyasətlərini reallaşdırıblar. İlk addəyişdirmə 1801-ci ildə baş vermiş, türk mənşəli adlar rus mənşəli toponimlərlə əvəz edilmişdir. Belə ki, ilk dəyişdirilən ad Cəlaloğlu rayonundakı (Stepanovan rayonu) Qaraməhəmməd kəndinin adının dəyişdirilərək Aleksandrovka qoyulması ilə başlayıb. Qeyd edək ki, Ermənistan ərazidəki türk mənşəli adların dəyişdirilməsi siyasətinə ”Türkmənçay” sülh müqaviləsindən sonra, XIX əsrin 30-cu illərindən sistemli və məqsədli şəkildə başlanılmışdır.

## ÇARDAQLI - ÜSTÜ ÖRTÜLÜ, BAĞLI KƏND

Uzun illər belə bir siyasət yürüdən ermənilər iyrənc xislətələrindən əl çəkmirlər. Bildiyimiz kimi, Azərbaycan Milli Məclisinin 29 dekabr 1992-ci il tarixli, 428 saylı Qərarı ilə Tərtər rayonunun Mağavuz kəndi Çardaqlı kəndi adlandırılmışdır. Kənd 1993-cü ildə Ermənistan Respublikası Silahlı Qüvvələri tərəfindən işğal edilmişdir. Tarixi mənbələrdə göstərilir ki, XIX əsrdə keçmiş Zəngəzur qəzasındakı eyniadlı kənddən gəlmiş ermənilər yaşayış məntəqəsini Maqavuz kimi rəsmiləşdirmişdilər. 1992-ci ildə kəndin keçmiş adı bərpa olunmuşdur. Biləsuvar rayonunun Aşağı Çəmənli kəndindən Şimal qərbdə, Araz çayının keçmiş yatağının sol sahilində yeddi təpədən ibarət Çardaqlı adlanan qədim yaşayış yeri də mövcuddur. Çardaqlı ”üstü örtülü, bağlı” deməkdir.

Çardaqlı kəndi əvvəllər Ağdərə rayonu inzibati ərazisinə aid idi, lakin 1992-ci ildə Ağdərə rayonu ləğv edilərək ərazisi qonşu Ağdam, Tərtər və Kəlbəcər rayonları arasında bölüşdürüldü. Çardaqlı kəndi də Tərtər rayonuna birləşdirilən kəndlərdən biridir. Bu yaxınlarda Rusiya Müdafiə Nazirliyinin internet səhifəsində yaşayış məntəqələrimizin adları uydurma erməni toponimləri ilə qeyd edilmişdir. Azərbaycan Respublikasının Qarabağ iqtisadi rayonunun yaşayış məntəqələrinin Azərbaycan toponimlərinə uyğun adlı siyahısı və xəritəsi Rusiya Federasiyasının Müdafiə Nazirliyi, Azərbaycan ərazisində müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlı kontingentinin əvvəlki və hazırkı komandanlığı, eləcə də Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinə Azərbaycan tərəfindən rəsmi qaydada göndərilmiş və məlumatlarda məhz bu adlardan istifadə olunması barədə dəfələrlə müraciət edilib.Buna baxmayaraq, təəssüf ki, Rusiya Federasiyasının Müdafiə Nazirliyinin rəsmi internet səhifəsində dərc olunan Rusiya Federasiyasının sülhməramlı kontingentinin rəsmi məlumatlarında yaşayış məntəqələrimizin adları uydurma erməni toponimləri ilə qeyd edilir. Belə ki, Rusiya Federasiyasının sülhməramlı kontingentinin 24 noyabr 2022-ci il tarixli rəsmi məlumatında ”Maqavuz” yaşayış məntəqəsi istiqamətində Azərbaycan tərəfindən guya atəşkəsin pozulmasının qeydə alındığı bildirilir.”Maqavuz” adlandırılan bu ərazi Azərbaycan yaşayış məntəqəsidir və bu Çardaqlıdır.

## MƏNƏVİ

## SOYQIRIMI - 29 RAYONDA 72 TÜRK TOPONİMİ DƏYİŞDİRİLDİ



Tarixin müxtəlif dönəmlərinə nəzər salsaq görərik ki, ermənilərin 1918-20-ci illərdə xalqımızı soyqırıma məruz qoyduqları kimi, qədim tarixi abidələri, binaları yandırır və addəyişməni davam etdirməklə mənəvi soyqırıma məruz qoyurdular. Həmin dövrün materiallarını əks etdirən sənədlərdə qeyd olunur ki, 1918-1920-ci illərdə Qərbi Azərbaycan ərazisində türk mənşəli adlar Yuxarı Ağdam - Qanzakar (İcevan), Tamamlı - Burastan (Artaşat) və s. erməni mənşəli sözlərlə əvəzləndi.1924-cü ildən aparılan addəyişdirmə prosesi nəticəsində Gümrü Leninakan adlandırıldı. Sonra Böyük Qarakilsə Kirovakan oldu. 1924-1930-cu illər ərzində Ermənistanda türk mənşəli 80 toponim dəyişdirilmişdir. Toponimlərin dəyişdirilməsinə səbəb kimi Ermənistan SSR-nin rəsmi qərarı göstərilirdi. Rəsmi qərarda qeyd olunurdu ki, Ermənistandakı yer adları dini məna daşıdığı, keçmişin feodal ünsürlərini özündə əks etdirdiyinə görə dəyişdirilməlidir. Təbii ki, Ermənistandakı türk toponimlərinin dəyişdirilməsinə əsas səbəb bu adların türk mənşəli olması idi. Toponimlərin dəyişdirilməsi prosesi İkinci Dünya müharibəsindən sonra daha da sürətləndi. 1946-1948-ci illərdə Yaxın Şərqdən, Şərqi Avropa və Amerikadan Ermənistana köçən ermənilərin sayının artması, eləcə də qeyd olunan illərdə təqribən 90 000 erməninin Qərbi Azərbaycana köçürülməsi buna səbəb idi. Tarixçi alimlərin qənaətinə əsasən, toponimlərin dəyişdirilməsinin digər səbəbi Ermənistan ərazisindən azərbaycanlıların kütləvi şəkildə deportasiyası idi. Bu qərara əsasən, 1948-ci ildə 10 000, 1949-cu ildə 40 000, 1950-ci ildə 50 000 azərbaycanlı Ermənistandan köçürüldü. Vurğulayaq ki, Ermənistan SSRİ Ali Soveti Rəyasət Heyətinin ilk fərmanı ilə 29 rayonda 72 türk toponimi dəyişdirilərək mənəvi soyqırım qurbanı olub.

## “BÖLGƏNİN ƏSL ADI BASARKEÇƏRDİR, GÖYÇƏ MAHALIDIR, QƏDİM AZƏRBAYCAN TORPAĞIDIR”

Zaman-zaman türk mənşəli toponimlər təcavüzə məruz qalmışdır. Adı dəyişdirilən rayonlardan biri də Basarkeçər rayonu olub. Basarkeçər rayonu 1930-cu il sentyabrın 9-da yaradılıb. 1969-cu il iyunun 11-nə kimi Basarkeçər, həmin tarixdən sonra isə Vardenis rayonu adlandırılıb. Rayon ərazisində irili-xırdalı çoxlu dağ zirvələri və Göyçə gölünə tökülən çaylar vardır. Onlardan ən böyüyü Məzrə (dəyişdirilmş adı Masrik) çayıdır. Çaxırlı yaylası da bu rayon ərazisindədir. Tarixi mənbələrdə göstərilir ki, 1948-1951-ci illərdə rayon əhalisinin bir qismi Azərbaycan ərazisinə köçürülmüşdür. Təkcə Zod kəndindən 100 ailə Xanlar (indiki Göygöl rayonu) rayonunda məskunlaşdırılmışdır. Bu vaxt Basarkeçərin 37 kəndində 30-u azərbaycanlı, 5-i erməni, 2-si isə qarışıq kəndlər idi. Vurğulamaq yerinə düşər ki, 28 noyabr 1988-ci il tarixdə daşnak terror qrupları Basarkeçər rayonunun Çaxırlı, Qanlı, Kərkibaş, Şişqaya, Zod kəndlərinə basqınlar edərək nəqliyyat vasitəsi olmayan imkansız, əliyalın əhalidən 34 nəfəri döyərək işgəncə ilə qətlə yetirmişlər. Qarda-çovğunda borana düşən qaçqınlardan 12 nəfər isə donvurmadan tələf olub. Basarkeçər rayonunun Daşkənd, Nərimanlı, Ağkilsə, Pəmbək, Qızılvəng, Şişqaya, Zod, Qanlı, Yuxarı Zağalı, Sətənağac, Kəsəmən, Göysu, Dərə, Subatan, Sarıyaqub, Çaxırlı, Zərkənd, Canəhmədd, Yarpızlı, Böyük Məzrə, Kiçik Məzrə, Böyük Qaraqoyunlu, Kiçik Qaraqoyunlu, Qoşabulaq, İnəkdağı, Babacan, Kərkibaş, Qayabaşı, Qaraiman, Ağyoxuş, Yuxarı Şorca, Aşağı Şorca, Qırxbulaq, Gödəkbulaq, Tüskülü, Qamışlı, Aşağı Zağalı kimi kəndləri var.

Bu gün Azərbaycan öz tarixi torpaqlarına qovuşub. 44 günlük Vətən müharibəsi 30 ilə yaxın işğala son qoydu. Bu gün türk mənşəli tarixi adlarımız da özünə qaytarılır. Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci Xanım Mehriban Əliyeva Kəlbəcər və Laçın rayonlarında olarkən dövlət başçısı bildirib ki, Basarkeçər rayonu Ermənistan ərazisində yaradılıb və orada yaşayanların da mütləq əksəriyyəti azərbaycanlılar olmuşdur. Basarkeçər rayonuna Ermənistanda ”Vardenis rayonu” deyilir. ”Ancaq bu rayonun, bölgənin əsl adı Basarkeçərdir, Göyçə mahalıdır, qədim Azərbaycan torpağıdır”, - deyə Cənab Prezident bildirib: ”Yalnız 1969-cu ilin iyun ayında Ermənistan Basarkeçər rayonunu, onun adını dəyişdirərək ona ”Vardenis” adı qoymuşdur. Xahiş edirəm ki, Azərbaycanda bu bölgə ilə bağlı hazırlanan reportajlarda və ümumiyyətlə, bizim ümumi leksikonumuzda ”Vardenis” yox, Basarkeçər adı bərpa edilsin. İndiki Ermənistan ərazisində yerləşən bütün digər qədim Azərbaycan yaşayış məntəqələri əsl adları ilə də çağırılmalıdır”. Azərbaycan əraziləri işğaldan azad edildikdən sonra 2020-ci ilə qədər Madagiz adlanmış Suqovuşan da öz tarixi adına qovuşdu. Tərtər rayonunun Çaylı kənd inzibati ərazi dairəsində olan Suqovuşan 3 oktyabr 2020-ci il tarixində Qarabağda gedən döyüşlər zamanı Azərbaycan Silahlı Qüvvələri tərəfindən azad edilmişdir. Suqovuşan kəndi 1923-cü ildə təşkil edilmiş Dağlıq Qarabağ Muxtar Vilayətində Ağdərə rayonu inzibati ərazisinə daxil edilib. 1943-cü ildə Suqovuşana şəhər tipli qəsəbə statusu verilmişdi. 1992-ci ildə Ağdərə rayonu ləğv edilərək ərazisi qonşu Ağdam rayonu, Tərtər rayonu və Kəlbəcər rayonu arasında bölüşdürüldü. Suqovuşan kəndi də Tərtər rayonuna birləşdirilən kəndlərdən biri olmuşdur. Onu da vurğulayaq ki, Suqovuşan ilk dəfə 1991-1992-ci illərdə Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilib. 1994-cü ilin aprel ayında Manvel Qriqoryanın başçılığı altında Ermənistan ordusunun Eçmiədzin könüllülər dəstəsi yenidən Suqovuşanı işğal edib. 44 günlük Vətən müharibəsində işğaldan azad edilən bu ərazinin tarixi adı Prezident İlham Əliyev tərəfindən bərpa edilərək Suqovuşan adlandırılmışdır.

Mənbələrdə də qeyd olunduğu kimi, indi Ermənistan adlanan ərazinin toponimlərinin əksəriyyətini türk mənşəli toponimlər təşkil edirdi. Yaxın tariximizə nəzər salsaq, görərik ki, 1988-89-cu ilə qədər azərbaycanlılar yaşamış 16 rayonda 90 türk mənşəli toponimlər dəyişdirilərək erməni adı ilə əvəzləndi. Bu rəsmi statistika Ermənistan prezidentinin fərmanı ilə 1991-ci ili əks etdirir. XX əsrin əvvəllərində Qərbi Azərbaycanda 2310 coğrafi addan 2000-ə qədəri türk mənşəli idi. Zaman yetişəcək Azərbaycanın bütün tarixi adları yenidən özünə qaytarılıcaqdır.

**Nəzakət ƏLƏDDİNQIZI**

# Milli Məclis

## "Siyasi partiyalar haqqında" yeni qanun layihəsini təsdiqlədi

**Noyabrın 29-da Milli Məclisin sədri Sahibə Qafarovanın sədrliyi ilə parlamentin növbəti plenar iclası keçirilib. Əvvəlcə iclasda cari məsələlərlə bağlı müzakirələr aparılıb. Komitə sədri Zahid Oruc, deputatlardan Etibar Əliyev, Razi Nurullayev, Aydın Mirzəzadə, Vüqar İskəndərov, Sahib Alıyev, Fazil Mustafa, Tamam Cəfərova, Qüdrət Həsənquliyev, Naqif Həmzəyev çıxışlarında ölkədə və dünyada baş verən önəmli hadisələrdən söhbət açıblar.**

Milli Məclisin deputatları Prezident İlham Əliyevin bu günlərdə ADA Universitetində keçirilmiş beynəlxalq konfransdakı çıxışının siyasi əhəmiyyətinə diqqət çəkiblər. Deputatlar Prezidentin tədbirdə Azərbaycanın müstəqilliyi, sərhədlərinin möhkəmləndirilməsi, Ermənistanla münasibətlərə dair fikirlərini xüsusi vurğulayıblar. Prezidentin dünya miqyasında gedən proseslərlə bağlı səsləndirdiyi fikirlərə münasibət bildirən deputatlar bunu Azərbaycanın beynəlxalq səviyyədə nüfuzunun daha da güclənməsinin göstərici kimi dəyərləndiriblər. Deputatlar seçiciləri narahat edən məsələlərdən də bəhs ediblər.

Sonra parlamentin sədri diqqətə çatdırıb ki, iclasın gündəliyinə 28 məsələ daxil edilib, ilk iki məsələ ikinci oxunuşda olan qanun layihələridir.

Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Konstitusiya qanunu layihəsini (ikinci oxunuş) təqdim edib. Parlament sədrinin birinci müavini sənədin zəruriliyindən danışaraq diqqətə çatdırıb ki, layihədə Konstitusiya Qanununa BMT çərçivəsində qoyulan tələblərin icrası və Ombudsmana "A" statusunun verilməsi ilə bağlı dəyişikliklər nəzərdə tutulub.

Qeyd edilib ki, həm komitə iclasında, həm də plenar iclasda deputatlar bir sıra hüquqi məsələlərə də toxunublar. Bu məsələlər Konstitusiya Qanununun Konstitusiyanın əsas mətninə uyğunlaşdırılması ilə bağlıdır. Bununla əlaqədar olaraq, layihədə bir sıra dəyişikliklər təklif olunur. Belə ki, qanun layihəsinin 1.1-ci maddəsindən "qanunlarına" sözü, 3.2-ci maddəsindən isə "əvvəllər" sözü çıxarılır. Eyni zamanda, 13-2.2-ci maddədə milli preventiv qrupun üzvlərinə münasibətdə "əvvəllər" sözü çıxarılır. Komitə sədri düzəlişlərin qanunvericilik təşəbbüsü subyekti ilə razılaşdırıldığını deyib. Sonra İnsan hüquqları komitəsinin sədri Zahid Oruc sənəd barədə rəhbərlik etdiyi komitənin rəyini bildirib.

Deputatlar Qüdrət Həsənquliyev, Fazil Mustafa, Hikmət Məmmədov, Erkin Qədirli sənəd barədə fikirlərini söyləyiblər. Milli Məclis sədrinin birinci müavini Əli Hüseynli səsləndirilən fikirlərə münasibət bildirib, bəzi məqamlara aydınlıq gətirib. Konstitusiya qanununun layihəsi ikinci oxunuşda səsə qoyularaq qəbul edilib.

Sonra Hüquq siyasət və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsini diqqətə çatdırıb. Bildirib ki, əsasnaməyə təklif olunan dəyişiklər miqrasiya orqanları işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, onların maddi təminatının yaxşılaşdırılması və vahid əməkhaqqı sisteminin tətbiq edilməsi məqsədilə hazırlanıb. Qanun layihəsi ikinci oxunuşda qəbul olunub.

Sonra Sahibə Qafarova qeyd edib ki, 3-cü məsələdən başlayaraq, növbəti 18 məsələ üçüncü oxunuşda olan qanun layihələridir. 3-cü və 4-cü məsələlər Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub və mahiyyətcə bir-birinə yaxındırlar.

Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli növbəti iki məsələ - Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş) və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş) qanun layihələri barədə məlumat verib. O, hər iki layihənin Avropa Şurası Konvensiyasının Müsadirə edilən əmlakla bağlı maddəsinə uyğun olaraq hazırlandığını bildirib. Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov Azərbaycan Respublikasının 1995-ci il 10 yanvar tarixli 947 nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi qulluqçuların dövlətə vurduqları ziyana görə maddi məsuliyyəti haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edərək, ikinci oxunuşdan sonra əlavə təklifin olmadığını söyləyib.

Sənəddə hərbi qulluqçuların və toplanışa çağırılmış hərbi vəzifəlilərin törətdikləri hərbi xidmət əleyhinə olan inzibati xəta nəticəsində dövlətə vurduqları ziyana görə ödənilməmiş ziyanın bütün miqdarı həcmində maddi məsuliyyətə cəlb edilməsi nəzərdə tutulur, cinayət və ya inzibati məsuliyyətə səbəb olmayan digər hərəkətlər nəticəsində vurulan ziyana görə maddi məsuliyyətin hədləri isə müddətli hərbi xidmətdə olan hərbi qulluqçular və kursantlar üçün pul təminatının iki aylıq məbləğindən üç aylıq məbləğinə, qalan hərbi qulluqçular üçün isə pul təminatının aylıq məbləğindən iki aylıq məbləğinə qaldırılır. Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Milli Məclisin sədri bildirib ki, gündəliyin 6-cı və 7-ci məsələləri də Prezident tərəfindən bir məktubla Milli Məclisə təqdim edilib və mahiyyətcə bir-birinə yaxındırlar. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Aydın Hüseynov Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (üçüncü oxunuş) barədə məlumat verib. O, ikinci oxunuşdan sonra layihənin mətninə heç bir əlavənin edilmədiyini deyib. Sənədə əsasən, Məcəllənin vergi orqanları və onların vəzifəli şəxsləri tərəfindən vergiödəyiciləri haqqında məlumatın hansı hallarda və hansı orqanlara verilə bilməsi ilə bağlı məsələləri tənzimləyən 30.6-cı maddəsinə dəyişikliklər təklif olunur.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edərək, əvvəlki iki oxunuş zamanı sənədlə bağlı hər hansı təklifin daxil olmadığını söyləyib. Layihədə kommersiya hüquqi şəxslərin təsisçiləri və onların nizamnamə kapitalındakı payları barədə məlumatların verildiyi subyektlərin dairəsinə antiinhisar fəaliyyətini həyata keçirən orqanın əlavə edilməsi təklif edilir. Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul olunub.

Parlamentin sədri diqqətə çatdırıb ki, növbəti üç məsələ də Prezident tərəfindən bir məktubla Milli Məclisə təqdim edilib və mahiyyətcə bir-birinə yaxın olan qanun layihələridir. Sonra Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş) və "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihələrindən bəhs edib. Təqdim edilən hər üç qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Qrant haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) diqqətə çatdırıb. Dəyişikliklər Qanunun 3-cü maddəsinin yeni 2-2-ci hissəsində qeyd olunan qrantların reyestrinin aparılması qaydasını müəyyən edir. Dəyişikliklərə əsasən, həmin maddə ilə müəyyən edilmiş qrantların reyestrinin hansı qaydada aparılması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən müəyyənləşdiriləcək.

Deputat Etibar Əliyev məsələ ilə bağlı bəzi qeydlərini bildirdikdən və komitə sədri Tahir Mirkişili tərəfindən məsələyə aydınlıq gətirildikdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (üçüncü oxunuş) barədə də məlumat verib. O bildirib ki, sənəd aksizli və məcburi nişanlama ilə nişanlanmalı malların dövriyyəsinin tənzimlənməsi, bu malların idxalı, istehsalı, satışı və dövriyyəsinə vergi nəzarətinin təmin edilməsi məqsədilə hazırlanıb. Qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.

Milli Məclisin sədri Sahibə Qafarova bildirib ki, növbəti üç qanun layihəsi Prezidentin bir məktubu ilə parlamentə daxil olub və bir-birinə yaxın məsələlərdir.

Sonra həmin üç məsələ - Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında və "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələri üçüncü oxunuşda təqdim edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirib ki, hər üç qanun layihəsi daşınmaz əmlak üzərində hüquqların qeydiyyatının elektron vasitələrlə idarə olunması ilə bağlıdır. Qeyd edilib ki, sənədlərin birinci və ikinci oxunuşu zamanı hər hansı təklif daxil olmayıb. Deputat Nurlan Həsənov bu üç sənədlə bağlı Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin müsbət rəyini diqqətə çatdırıb. Təqdim olunan hər üç qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Həmçinin dünənki iclasda Milli Məclis "Siyasi partiyalar haqqında" yeni qanun layihəsini birinci oxunuşda təsdiqləyib. Belə ki, qanun layihəsi Parlamentin noyabrın 29-da keçirilən plenar iclasının gündəliyinə daxil edilib.

Yeni qanun partiyaların fəaliyyətinin təkmilləşməsi və dinamik hüquqi tənzimlənməsi məqsədi daşıyır. Yeni layihədə çoxpartiyalılıq demokratiyanın başlıca göstəricisi kimi təsbit olunub.

Qanun layihəsinin hazırlanması zamanı Avropanın qabaqcıl ölkələrinin təcrübəsi, milli-mənəvi dəyərlərin qorunub saxlanması, ölkədə mövcud olan siyasi sistem nəzərə alınıb. Həmçinin Venesiya Komissiyasının siyasi partiyaların fəaliyyətinin tənzimlənməsi ilə bağlı tövsiyələri nəzərdən keçirilib. Layihənin hazırlanması ilə əlaqədar ekspert komissiyası yaradılıb və bu komissiya tərəfindən 20 ölkənin bu sahədəki təcrübəsi öyrənilib. Bununla yanaşı, siyasi partiyalar tərəfindən daxil olan təkliflərə diqqət yetirilib. Milli Məclisin siyasi partiyalara müraciətindən sonra 47 siyasi partiyadan 250-dən çox təklif daxil olub. Sənədin yenilənməsi zamanı layihədə 66 dəyişiklik edilib.



# Sülhməramlıların bulanıq suda balıq tutmaq həvəsi

Azərbaycan tərəfinin bütün etirazlarına rəğmən, şəhərlərimizi, yaşayış məntəqələrimizi, eləcə də toponimlərimizi erməni adları ilə, erməni variantında qeyd edən Rusiya sülhməramlıları, göründüyü kimi, həyasızlığın son həddini nümayiş etdirirlər və bununla da təxribatların davam etməsində onların marağının olduğu ortaya çıxır. Təxribatlara rəvac verən, işğalçının yanında olan sülhməramlılar təxribatların aradan qaldırılmasında maraqlı görünmürlər, əksinə, aranın daha da qızışdırılmasında maraqlı olduqları bəlli olur ki, burada da məqsəd öz mövcudluqlarını qorumaqdır, çünki təyin olunan vaxt bitdiyində bölgəni tərk edəcəklərindən narahatdırlar.









Təxribatçıların bu zamana qədər məhz sülhməramlılar hesabına ərazimizdə qalması da hər kəs üçün bəlli məsələdir. Onlar elə sülhməramlıların varlığından istifadə edərək dinc dayanmırlar və özlərini arxalı hesab edirlər deyə istədikləri zaman təxribata əl atmaqdan çəkinmirlər, əks halda qorxularından çoxdan susub oturardılar. Təbii ki, təxribatçılara belə bir cəsarəti verən, onları yeni təxribatlara ruhlandıran məhz sülhməramlıların ərazimizdə olması, guya nəzarət etməsi, guya ki, sülh məramıdır. Əslində isə, sülhməramlılar bu vaxta qədər təxribatçılara qarşı bircə dənə də tədbir görməyiblər, sülh məramı sərgiləməyiblər, əksinə, onların qanunsuz, təxribatçı hərəkətlərinə bilərəkdən göz yumublar ki, ara sakitləşməsin və sülhməramlılara ehtiyac hər zaman olsun. Sözsüz ki, onların fikrincə belə bir ehtiyacın olması, belə bir ehtiyac duyulması da öz növbəsində rus sülhməramlılarının, bütövlükdə Rusiyanın bölgədə qalma müddətinin artmasına gətirib çıxara bilər, amma Azərbaycan bəyan edir ki, Rusiya sülhməramlıları öz müddətlərini başa vurduqdan sonra ərazilərimizi tərk edib gedəcəklər. Deməli, həyasızlıq etməklə, təxribatları körükləməklə heç nəyə nail ola bilməyəcəklər, ola bilsin ki, eyni ilə bu ilin mart ayında Azərbaycan tərəfindən aparılan Fərrux əməliyyatlarının oxşarına, buna bənzər əməliyyatın təkrarlanmasına şərait yaratmış olacaqlar və bu da ermənilərin özlərinə baha başa gələcək, nəticələri də olduqca ağır olacaq.

Hazırda ruslara güvənərək təxribatlara əl atan, separatçılıq planlarını həyata keçirməyə çalışan ermənilər bölgədə gərginliyi artırmaqda davam edirlər. Bu gərginliyin artmasını isə rus sülhməramlılar sanki müşahidə etməklə işlərini bitmiş hesab edirlər. Əslində, bölgədə gərginlik durmadan artırsa, bu, sülhməramlıların rolunun olmaması deməkdir. Əgər sülhməramlıların rolu yoxdursa, o zaman onların bölgədə nə işi var? Deməli, təxribatların davam etməsi, bu təxribatlara imkan, rəvac verilməsi, eləcə də bölgədə gərginliyin artmasını sadəcə müşahidə etmək sülhməramlıların fəaliyyətsizliyi anlamına gəlir ki, bu da nəticə etibarı ilə onların lazımsız olduqlarını təsdiq edir. Təsdiq edir ki, sülhməramlıların müddəti bitdikdən sonra onların ərazilərimizdə qalmasına zərrə qədər ehtiyac yoxdur, əksinə, onların bizim ərazilərimzi tərk etməsi daha məqsədəuyğundur və hətta labüddür, vacibdir. Bir sözlə, öz əməlləri, öz tərzləri ilə sülhməramlılar öz aqibətlərini indidən müəyyənləşdirmiş olurlar və onların ərazilərimizi tərk etmələri daha təxirəsalınmaz tədbir olaraq qəbul edilir.

Bəllidir ki, Rusiya açıq-aşkar şəkildə Ermənistanı, eləcə də erməniləri müdafiə edə bilmir. Bunun üçün şimal qonşumuzub bircə bəhanəsi belə yoxdur. Həmçinin rəsmi Moskva hansısa işğalçı ölkəni, ələlxüsus Ermənistanı müdafiə etmək, ona dəstək göstərmək istəyində deyil. Əvvəla, ermənilər də, Ermənistan da ruslar üçün heç bir maraq kəsb etmir, əksinə anti-Rusiya bəyanatları səsləndirən haylar onları kifayət qədər qıcıqlandırıblar. Digər tərəfdən də Ukrayna ilə müharibə fonunda Rusiyanın özünün indi dəstəyə ehtiyacı var və belə bir şəraitdə ruslar istəsələr belə bunu etmək iqtidarında deyillər. Elə isə sülhməramlıların canfəşanlığı nədən qaynaqlanır və təxribatçıların hərəkətlərinə rəvac vermələri nə deməkdir? Təbii ki, indi artıq rusların etdikləri ermənilər üçün yox, özləri üçündür və Rusiya bölgədə mövcudluğundan imtina etməyi təsəvvür belə etmir. Elə buna görə də ruslar erməniləri alət olaraq istifadə edirlər, amma hər bir halda bunun Azərbaycan üçün deyil, Ermənistan üçün açı nəticələr verəcəyi gözləniləndir. Rus sülhməramlıları sonda bölgəni tərk edib gedəcəklər, amma yumruq, özü də "Dəmir Yumruq" yenə də separatçı, təxribatçı ermənilərin başını əzəcək.

Tez-tez revanş barədə spekulyasiyalara maraq göstərən ermənilərin silah tədarükü, sursat əldə etməsi üçün əldən-ayaqdan getdilər də nəzərdən yayınan deyil. Hindistandan silah almaq barədə razılığa gələn ermənilər başa düşürlər ki, əvvəla, heç bir bazarı olmayan həmin silahlar onları qane edən deyil. Digər tərəfdən də axı, hansı ölkə Ermənistana eyni ilə Rusiya kimi pulsuz, müftə silah bağışlayacaq? Heç bir ölkə. Nə Hindistan, nə də heç bir dövlət ermənini pulsuz silahlandırmaq marağında ola bilməz. Bəli, Pakistanın Azərbaycanla yüksək səviyyədə olan münasibətlərindən qıcıqlanan Hindistandan Ermənistan məhz bu səbəbdən hansısa silahları ala bilər, amma yalnız pulla. Bunun üçün isə Ermənistanın büdcəsi yetərli deyil. Belə olan halda ermənilərin silah əldə etməsi barədə fikirləri uydurduqları nağıl və miflər qədər gülünc səslənə bilər. Təsadüfi deyil ki, ermənilərin əksəriyyəti, rusların guya onlara xəyanət etdiklərini dilə gətirsələr belə hələ də Rusiyanın ətəyini buraxmamaq barədə düşünürlər. Çünki bilirlər ki, nəinki Hindistan, nə ABŞ, nə İran, nə də Fransa İrəvana müftə, pulsuz silah göndərməz. Bu baxımdan Ermənistanın silahlanması hələ yaxın otuz il ərzində nağıl kimi səslənir. Amma bu belə o demək deyil ki, otuz ildən sonra ermənilər bizimlə müharibə etmək gücünə, səviyyəsinə çata bilərlər, xeyr. Ona görə ki, Azərbaycanın hərbi qüdrəti də, silah arsenalı da müqaisəyə gəlməz dərəcədə onlardan artıqdır və torpaqlarımızı, ərazi bütövlüyümüzü əzmlə qorumaq məqsədi ilə sürətlə də bu baza genişləndirilir. Bir sözlə, Ermənistan artıq nə zamansa, hansısa iddiada ola bilməz, amma etiraf etmək lazımdır ki, az-para silah əldə edən ermənilər bundan şirniklənərək təxribatlara əl atırlar və bu da müəyyən gərginliyə səbəb olur. Bu səbəbdən məhz işğalçı, təxribatçı, separatçı bir ölkənin silahlanmasına qarşı nəinki Azərbaycan, bütövlükdə dünya etiraz etməkdə haqlıdır.

Hər tərəfdən, bütün qonşu dövlətlərdən əli, ümidi üzülən ermənilər yalnız Rusiyanın tör-töküntüsünə ümid edə bilər. Hətta bəlgədə yerləşdirilən Rusiya sülhməramlıları belə ermənilər üçün xilas yeri hesab olunurlar. Təsadüfi deyil ki, erməni baş nazir Paşinyandan tutmuş ən sıravi ermənoyə qədər sülhməramlıların müddətinin əbədi olması arzusundadır və bunu onlar gizlətmirlər də. Bir zamanlar dırnaqarası "məğlubedilməz erməni silahlı qüvvələri" mifini yaradanlar, bu mifi dünyaya sırımaq istəyənlər nə əcəb böyük rus qardaşlarının ətəyini buraxa bilmirlər və əbədi olaraq onların bölgədə qalmaları üçün dəridən-qabıqdan çıxırlar? Ona görə ki, dediklərinin mif olduğunu özləri hamıdan yaxşı bilirlər və bilməyənlər də 44 günlük müharibə ərəfəsində dabanlarına tüpürüb qaçan erməni əsgərlərini gördükləri zaman, fərarilərinin sayını bildikləri zaman bu mifin yalan olduğuna əmin oldular. Elə ona görə də ermənilər sülhməramlıların dizinin dibini kəsdirib durublar və bundan da rus sülhməramlıları istədiyi şəkildə istifadə edir, təxribatlara rəvac verir. Rəvac verir ki, bölkədə sakitlik, təhlükəsizlik mühiti bərqərar olmasın, yaranmasın və onlar da öz mövcudluqlarını qorusunlar. Yəni, sülhməramlılar qəsdən suyu bulandırırlar ki, bulanıq suda balıq tutmaq misalında özləri üçün, ruslar üçün, Rusiya üçün Cənubi Qafqazda mövqe tutsunlar. Bir sözlə, sülhməramlılar qəsdən suyu bulandırmaq niyyətindədirlər və bölgədə qalmaq üçün son, özü də puç olacağı görünən ümidləri də yalnız budur.

***İnam Hacıyev***

## MEDİA Agentliyi ilə Azərbaycan Dillər Universiteti arasında görüş keçirilib

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov ilə Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdulla arasında görüş keçirilib. Media İnkişaf Agentliyindən SİA-ya verilən məlumata görə, görüş zamanı Əhməd İsmayılov tədris prosesində ənənəvi medianın rəqəmsal mediaya inteqrasiyasının dəstəklənməsi və yeni media mühitinin tələblərinə cavab verən kadr potensialının artırılmasının önəmini vurğulayıb, ali təhsil müəssisələri ilə media sahəsində əməkdaşlığın gücləndirilməsinin vacibliyini qeyd edib.






Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdulla media sahəsində islahatlar prosesinin geniş vüsət aldığını qeyd edərək əməkdaşlığın jurnalist kadrların yetişdirilməsi istiqamətində faydalı nəticələr verəcəyinə əminliyini ifadə edib, qarşılıqlı inkişaf perspektivləri barədə fikirlərini diqqətə çatdırıb. Universitetin tələbə və müəllim heyətinin iştirak etdiyi görüşdə Medianın İnkişafı Agentliyinin Layihələr şöbəsinin müdiri Ləman İsgəndərova "MEDİA Lab" layihəsinin təqdimatını edib, layihənin təşkili mexanizmləri müzakirə olunub.

***Banuçiçək Hüseynli***

# Şəhidlər ölməz, Vətən bölünməz!

*Ağdamda şəhid Elçin Quliyevin anım mərasimi keçirilib*

28 noyabr tarixində Ağdam rayonunda 44 günlük vətən müharibəsinin şəhidi Quliyev Elçin Rövşən oğlunun anım günü ilə bağlı tədbir keçirilmişdir. Tədbirdə Yeni Azərbaycan Partiyası Ağdam rayon təşkilatının sədri Mansur Quliyev, Ağdam Rayon İcra Hakimiyyəti Başçısı Aparatının Vətən Müharibəsi İştirakçıları və Şəhid Ailələri ilə İşin Təşkili şöbəsinin müdiri Samir Məmmədov, partiya fəalları, şəhidimizin ailə üzvləri və rayon ictimayətinin nümayəndələri iştirak etmişlər. Tədbir iştirakçıları əvvəlcə şəhidlər xiyabanında şəhidlərimizin məzarını ziyarət edərək onların əziz xatirələrinə






dualar oxumuşlar və məktəbli şagirdlər şəhidlərimizə həsr olunmuş müxtəlif şeir kompozisiyaları söyləmiş, həmçinin rayon ziyalılarıda çıxışlar etmişlər. Daha sonra tədbir iştirakçıları Quliyev Elçin Rövşən oğlunun evini ziyarət etmişlər, şəhidimizin ailə üzvülərinin problemləri ilə maraqlanmışlar.Şəhidimizin ailə üzvüləri də dövlətimiz tərəfindən onlara göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti cənab İlham Əliyevə və Birinci xanım Mehriban Əliyevaya öz minnətdarlıqlarını bildirdilər.Qeyd edək ki, şəhid Quliyev Elçin Rövşən oğlu Vətən müharibəsi zamanı Suqovuşan istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlib. Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən o, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

**Allah bütün şəhidlərimizə rəhmət eləsin!**

# Ermənistan residivistləri orduya çağırır



Nəticədə ağır cinayətlərin sayı durmadan artır

Ermənistan ordusunda cinayətkarlığın artması, ümumiyyətlə, orada dedovşina və qanundankənar davranış amilləri artıq bir ənənə şəklini alıb. Uzun illərdir istər komandanlıq, istərsə də şəxsi heyət arasında demək olar ki, müxtəlif xarakterli cinayət hallarının artması hətta tətbiq edilən məhkəmə hökmləri ilə də aradan qaldırılmır. Üstəlik, komandanlıqların, həmçinin hərbçilərin öz aralarında baş verən fiziki, eləcə də cinsi zorakılıq halları da durmadan artır və bütün bunlar reallıqda erməni silahlı qüvvələrinin nə qədər acınacaqlı vəziyyətdə olduğunu növbəti dəfə sübut edir. Maraqlıdır ki, bütün bunlara baxmayaraq, Ermənistanda hətta ən ağır cinayətlər törətmiş şəxsləri belə ordu sıralarına cəlb edirlər. Residivistlər, seksual manyaklar və s. tipli şəxslər həbsxanalardan birbaşa hərbi hissələrə göndərilirlər.

Ehtiyatda olan zabit Misak Pertosyanı öldürən Vahe Qazaryan 3 il həbsdə yatdıqdan sonra yenidən ordu sıralarına çağırılıb.

Belə hadisələrdən biri də Qafan ərazisində yaşanıb. Erməni KİV-lərinin yazdığına görə, ötən ay-oktyabrın 29-da Qafan hərbi hissəsində 37 yaşlı ehtiyatda olan Misak Petrosyanı öldürməkdə şübhəli bilinən Vahe Qazaryan ağır cinayət törətdiyinə görə cəmi 3 il müddətinə azadlıqdan məhrum edilib. 2021-ci il mayın 24-də isə məhkəmə hökmü Qazaryana şərti olaraq tətbiq etməməyə qərar verib və ona 3 il sınaq müddəti təyin edib. Qazaryan isə sınaq müddətinin tələblərinə əməl etməyib və nəticədə yeni cinayət baş verib.





Bütün bunlardan sonra qətlə yetirilmiş ehtiyatda olan erməni hərbi qulluqçu Misak Petrosyanın yaxınlarını bir sual düşündürür: qətl hadisəsi törətmiş şəxs hansı qanun-qaydalar əsasında ordu sıralarına cəlb olunur? Yəni onun döyüş mövqelərinə göndərilməsi nə dərəcədə doğrudur?

Qeyd edilir ki, Misak Petrosyan çağırış vərəqəsini alıb və ertəsi gün dərhal hərbi təlim üçün əvvəlcə Armavirə, sonra isə Qafana yola düşüb. Misakın qardaşı Hakop Petrosyanisə deyib ki, öldürülməmişdən bir gün əvvəl Misakla danışıblar, əhvalı yaxşı olub, heç bir probleminin olmadığını bildirib. Petrosyanlara hadisə barədə hərbi komissarlıqdan məlumat verilib. Digər təfərrüatlar barədə isə heç nə deyilməyib.

Ermənistan MN bu qətl faktının üzərindən sakit keçməsi ilə yanaşı, reallıqda nəyə "qadir" olduğunu açıq-aşkar ortaya qoyur...

Ermənistan Müdafiə Nazirliyi oktyabrın 29-da ehtiyatda olan erməni hərbi qulluqçunun ölümü barədə məlumat verərək Petrosyanın xidmət yoldaşının açdığı atəşdən ölümcül güllə yarası aldığını bildirib. Ermənistan Müdafiə Nazirliyinin mətbuat katibi Aram Torosyan bildirib ki, məsələ hüquqi müstəvidədir, onlar araşdırılan cinayət işləri ilə bağlı şərh verə bilməzlər. Yəni bu ifadələrin özü də göstərir ki, Ermənistan MN bu qətl faktının üzərindən sakit keçməsi ilə yanaşı, reallıqda nəyə "qadir" olduğunu açıq-aşkar ortaya qoyur...

Onu da qeyd edək ki, Ermənistan Baş Prokurorluğunun ictimai əlaqələr şöbəsi bundan bir neçə gün öncə rəsmi məlumat yayaraq bildirib ki, cəbhəyə göndərilmək üçün azadlıqdan məhrum edilən şəxslərdən 12 məhbusun həbs qətimkan tədbiri dəyişdirilib, daha 9 məhkum isə vaxtından əvvəl şərti azadlığa buraxılıb.

Ancaq bu kimi faktlar Ermənistan silahlı qüvvələrində kifayət qədərdir və bunun nəticəsidir ki, ordu sıralarında demək olar ki, hər gün ağır cinayət halları yaşanmaqdadır. Bütün bunlar isə bir daha belə qənaətə gəlməyə zəmin yaradır - ölkə kimi, Ermənistanın ordusu da məhvə doğru sürüklənir.

***Rövşən RƏSULOV***

# Zəngəzur dəhlizi mütləq açılacaq

**ABŞ, Belçika, Bolqarıstan, Böyük Britaniya, Fransa, İsrail, İsveçrə, İtaliya, Gürcüstan, Kanada, Misir, Pakistan, Polşa, Rumıniya, Rusiya və Türkiyənin aparıcı beyin mərkəzlərinin rəhbərlərinin, tanınmış siyasətçilərin, politoloqların iştirak etdikləri konfrans dünya siyasətinin aktual məsələləri, Orta Dəhlizin təhlükəsizlik aspektləri, regionun iqtisadi imkanları ilə bağlı maraqlı müzakirələrlə yaddaşlarda qalmışdır. Konfransda qlobal əhəmiyyətə malik infrastruktur olan Zəngəzur, Şərq-Qərb dəhlizlərinin nəqliyyat imkanları, regional yükdaşımalarının genişləndirilməsində və şaxələndirilməsində yaranacaq geniş imkanlar barədə faydalı fikir mübadiləsi aparılmışdır.**

Konfransdakı çıxışında qlobal və regional səviyyədə geosiyasət, təhlükəsizlik və iqtisadiyyatla bağlı istənilən beynəlxalq layihələri dünyada sabitliyin qorunması baxımından aktual adlandıran Prezident İlham Əliyev Avropa ilə Asiyanın qovşağında yerləşən Azərbaycanın təşəbbüslərilə reallaşan qlobal enerji, nəqliyyat layihələrinin həyata keçirilməsini ölkəmizin xarici siyasətinin, güclənən iqtisadi potensialının məntiqi nəticəsi kimi diqqətə çatdırıb.

Dünyanın tanınmış tədqiqatçılarının, Cənubi Qafqaz üzrə araşdırmaçıların Şərq-Qərb, Orta Dəhliz məsələləri ilə bağlı suallarını dəqiq, ünvanlı, gələcəyə hesablanmış perspektivlər əsasında cavablandıran Prezident İlham Əliyev birgə əməkdaşlığın vacibliyini "Hesab edirəm ki, artıq fəaliyyət göstərən bu nəqliyyat marşrutları Xəzər regionunun bütün ölkələrinin daha da inteqrasiya olunmasına imkan verəcək. Bizim Türkmənistanla əməkdaşlığımızın çox yaxşı tarixi var. Bu gün biz Türkmənistandan daxil olan yüklərə vacib tranzit imkanı yaradırıq. Hətta biz Ələt Dəniz-Ticarət Limanında Türkmənistandan olan yüklər üçün xüsusi yer ayırmışıq. Biz türkmən qazı ilə bağlı svop əməliyyatlarına başlamışıq" sözləri ilə açıqlamaqla beynəlxalq siyasətin aktual mövzularından olan Zəngəzur dəhlizinin bərpası, mövcud vəziyyətlə bağlı fikirlərini də konfrans iştirakçılarının diqqətinə çatdırıb: "Biz faktiki olaraq Zəngəzur dəhlizi ilə bağlı müzakirələrimizi Ermənistanla deyil, Rusiya ilə aparırıq. Çünki Ermənistan asılı ölkədir. Onun müstəqilliyi çox simvolikdir. Ona görə də, biz onlarla danışıqlar apararaq vaxt itirmək istəmirik, Rusiya ilə danışıqlar aparırıq. Yeri gəlmişkən, Rusiya rəsmiləri ilə son təmaslarım zamanı biz Zəngəzur dəhlizini müzakirə etdik. Düşünmürəm ki, Ermənistan bu layihəni əngəlləmək iqtidarında olacaq. İrana gəlincə, yenə də düşünmürəm ki, bu, belə olacaq. Çünki İran özü regional kommunikasiya layihələrində maraqlı olmalıdır, ona görə ki, bu layihələr heç kimə qarşı deyil, hamının xeyrinədir. Beləliklə, əgər biz bütün iştirakçılarla səmimi əməkdaşlıq və qarşılıqlı faydalı yanaşma platforması qurmağa nail olsaq, bu, işə yarayacaq. Əgər olmasa, ola bilsin ki, bu, qismən işləyəcək."

30 il ərzində erməni işğalından əziyyət çəkmiş ərazilərin, o cümlədən Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması istiqamətində aparılan bərpa- quruculuq işlərini, yol-nəqliyyat infrastrukturunun yenilənməsini görülən işlərin təməli adlandıran dövlət başçımız regional əməkdaşlığa töhfə olan, Azərbaycanın, Ermənistanın, Gürcüstanın, Türkiyənin, İranın, Rusiyanın iştirakını nəzərdə tutan 3+3 formatının əhəmiyyətini diqqətə çatdırıb. Xəzərdən, eləcə də Zəngəzurdan keçən marşrutların və layihələrin coğrafiyası ilə bağlı ölkəmizin qarşılıqlı əməkdaşlığa xidmət edən səylərinin regionda sabitliyin qorunmasına töhfə verəcəyini bildirib.

Ötən ay Praqada Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti, Fransa Prezidenti və Ermənistanın baş naziri arasında keçirilən dördtərəfli görüşdə də qeyd olunmuşdu ki, Zəngəzur dəhlizinin açılması ilə bağlı Ermənistanın konkret mövqeyini əks etdirən anlaşma hələ ortada yoxdur. Praqa görüşündən sonra yerli telekanallara müsahibəsində bu məsələyə də aydınlıq gətirən




**ADA Universitetində "Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda keçirilən beynəlxalq konfrans Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdıran növbəti platforma oldu**



dövlət başçımız "Təəssüf ki, bu gün mən Ermənistanın baş nazirinə yenə də müraciət edəndə ki, nəhayət bizə avtomobil yolu üçün marşrutu verin, yenə də cavab ala bilmədim. Bu hətta gülməli deyil, çünki orada o qədər də böyük hissə yoxdur. Hamı bilir ki, dəmir yolu və avtomobil yolu haradan keçməlidir. Bizə Naxçıvana könüllü olaraq keçid vermək istənilməməsi anlaşılan deyil. Öz öhdəliyini pozmaq - əlbəttə, son dərəcə biabırçı faktdır. Lakin biz hələ səbir göstəririk, təmkin göstəririk. Əminəm, biz buna da nail olacağıq, yaxşı olardı ki, gec deyil, tez olsun"" sözləri ilə dəhlizin aqibəti ilə bağlı qəti mövqeyini bildirib. Mövqe isə aydındır: Ermənistan istəsə də , istəməsə də Zəngəzur dəhlizi açılacaq.

Artıq bütün dünya dövlətləri də aydın başa düşür ki, bu yol təkcə Ermənistandan keçərək, Azərbaycanla Naxçıvanı quru yolla birləşdirəcək dəhliz deyil. Regional və beynəlxalq yükdaşımalar üçün ən sərfəli və səmərəli infrastruktur olan Zəngəzur dəhlizi beynəlxalq və regional əhəmiyyətə malik ciddi layihədir. Ona görə də dəhlizin açılması ilə bağlı müzakirələrin intensivləşməsi günün tələbidir. Zəngəzur dəhlizinin açılması məhz sərhədlərin tanınmasından, delimitasiya və demarkasiya proseslərindən keçir. Çünki Azərbaycan sərhədindən çıxan dəhliz hər iki tərəfdən müvafiq qurumlar tərəfindən qorunaraq, Naxçıvana və digər istiqamətə gedəcək. Ermənilər cidd-cəhdlə çalışırdılar ki, dəhliz onların gömrük yoxlamaları, sərhəd nəzarəti əsasında yaradılsın. Zəngəzur dəhlizinin açılması məsələsində Ermənistanla həmrəy olan İranın layihəyə qeyri-səmimi yanaşmasının da əsası yoxdur. Çünki bu dəhlizin bərpası Ermənistanla İran arasında sərhədi bağlamır. Zəngəzur dəhlizinin bərpası ilə bağlı Azərbaycanın beynəlxalq səviyyədə dəstəklənən mövqeyi Ermənistanın revanşist qüvvələrini qıcıqlandırır. Vətən müharibəsini Zəfərlə başa vuran Azərbaycanın dünyada möhkəmlənən nüfuzu ilə barışmaq istəməyən qüvvələr, dairələr, 2020-ci ilin 10 noyabr Bəyanatına əməl etməyən erməni quldurlarından ibarət silahlı dəstələr törətdikləri hərbi təxribatlarla dəhlizin bərpasına mane olurlar. "Fərrux", "Qisas" əməliyyatlarından, 13-14 sentyabr Ermənistan-Azərbaycan sərhədindəki hadisələrdən dərs almayan işğalçı dövlət son şansı olan Zəngəzur dəhlizinin açılması ilə bağlı əsassız iddiaları ilə vaxtı uzadır. Reallıq isə budur ki, ermənilər bir daha Qarabağa göz dikə bilməyəcəklər. Qarabağ Azərbaycan torpağı olub və belə də qalacaq. Rus sülhməramlılar isə orada müvəqqəti yerləşiblər. 2020-ci ilin 10 noyabr Bəyanatında onların müddəti göstərilir. Tarixi hadisələr də təsdiqlədi ki, işğalçılar əgər kiməsə bel bağlayırlarsa, yenə də faciə ilə üzləşəcəklər. Bu xəbərdarlıq Zəngəzur dəhlizinin açılmasına mane olan bütün tərəflərə aiddir. İkinci Qarabağ müharibəsindən iki il keçməsinə baxmayaraq Ermənistan hələ də Zəngəzur dəhlizi ilə bağlı öhdəliyini yerinə yetirmir. Dəhlizin bərpası üçün yol-infrastruktur layihələri əsasında inşa işlərini davam etdirən Azərbaycandan fərqli olaraq Ermənistan tərəfindən texniki-iqtisadi əsaslandırma işlərinə nəinki başlanılmayıb. Əksinə, erməni silahlılarının mütəmadi törətdikləri təxribatlarla işlərə əngəl törədilir. Bu təxribatın müəllifi Ermənistantana himayədarlıq edən Fransadır. "Onlar bir-birinə bacı deyirlər və onların özü də mən görürəm, yoldaşlar xüsusilə bunu qeyd etdilər. Mən daha demədim ki, qardaş da deyə bilərdilər, amma nədənsə bacı deyirlər bunlar. Orada hazırlanmış qətnamənin ilkin variantı sırf anti-Azərbaycan tezislər üzərində qurulmuşdur və həqiqətə tam zidd idi. Frankofoniya təşkilatında olan dostlarımızın, - onları biz yaxşı tanıyırıq və onlar da, sözün əsl mənasında, dostlarımızdır, - səyi nəticəsində bütün anti-Azərbaycan tezisləri oradan çıxarıldı. Fransa-Ermənistan tandemi bu imkandan da istifadə edə bilməmişdir. Yəni, bu, onu göstərir ki, bizim beynəlxalq təşkilatlardakı nüfuzumuz və beynəlxalq müstəvidə apardığımız siyasət təqdir edilir. Çünki biz hər bir işə hər zaman məsuliyyətlə yanaşırıq" söyləyən Prezident İlham Əliyevin vurğuladığı kimi, ölkəmizə bu cür səmimi münasibət beynəlxalq arenada özünü ləyaqətlə aparan Azərbaycana etimadın ifadəsidir. Azərbaycanlılar qalib dövlətin, qüdrətli ölkənin vətəndaşları adını daşıdıqları üçün qürur hissi duyurlar. Bu hissi xalqımıza yaşadan, Zəngəzur dəhlizinin açılmasında qətiyyət göstərən dövlət başçımız İlham Əliyevdir.

Belə bir müdrik ifadə vardır: "Böyük söz söyləmək yalnız belə cəsarətə sahib böyüklərə məxsusdur." Başqa sözlə deyilsə, sözünə imzası qədər dəyər verən, müasir dünya siyasətinin liderlik fəlsəfəsinin müəllifi Prezident İlham Əliyev kimi!

***Xuraman İsmayılqızı***

ARAŞDIRMA

# Uşaqları musiqi alətlərinə yönəltmək onların psixologiyasına necə təsir edir

**Musiqi özünüifadə bacarıqlarını, yaradıcılığı, zövqü və estetik hissləri təkmilləşdirir, səs və dil inkişafı ilə idraki inkişafa və mücərrəd düşüncəyə töhfə verir. Uşağın musiqi istedadı isə doğulduğu andan başlayır. O, anadan olduğu andan səslərə reaksiya verir. Valideynlərinin addımlarını tanıyır.**

Bəzi tədqiqatçılara görə, uşaqların mahnılarını dinləmək, zümzümə etməklə fitri olaraq musiqiyə qarşı həssas olduğunu müşahidə edə bilərik. Bu təbii qabiliyyət uşaqda fitri istedaddır.

3-6 ay arasında körpələr musiqinin qaynağına tərəf çönməyə və ondan aldıqları həzzi göstərməyə başlayırlar. 1 yaşlı uşaq əlləri və səsi ilə aktiv musiqidə iştirak etməyə çalışır. Eyni musiqi parçası təkrarlananda o, eyni hərəkətləri tanıyıb, eyni səsləri çıxarmağı öyrənir. 2 yaşlı uşaq musiqi dinləməyi çox sevir və hərəkətlərini musiqinin ritminə uyğunlaşdırmağa çalışır.

3, 4 və 5 yaşlı uşaqların isə oturaraq musiqi dinləməyə meylli olduqları müşahidə edilir. Bu xüsusiyyət həm də məktəbəqədər yaşlı uşağa dinləmək və susmaq vərdişi verir. Məktəbəqədər dövrdə musiqi fəaliyyəti zənginləşir, çünki uşaqlar musiqini getdikcə daha çox mənimsəyir.

Məktəbəqədər yaşlı uşaqlar üçün musiqi və rəqs özünüifadə vasitəsi olmaqla yanaşı, həm də onların sosial inkişafı üçün mühümdür. Çünki uşaq musiqinin müşayiəti ilə dostları ilə daha rahat ünsiyyət qura bilir.









## Musiqi təhsili uşağa nə qazandırır?

SİA mövzu ilə bağlı araşdırma aparıb. Musiqi, ilk növbədə, məktəbəqədər yaşlı uşağın nitqinin inkişafına uşaq mahnıları vasitəsilə kömək edir. Bundan əlavə, uşağa musiqi fəaliyyəti ilə öz yaradıcılığını üzə çıxarmaq imkanı verir. Musiqi zehni, sosial bacarıq və qabiliyyətlərin inkişafına kömək edir. Musiqi təhsilinin mütaliə qabiliyyətinə də töhfə verdiyi açıq-aydın görünür.

Dünyada aparılan araşdırmalara görə, dərs ilinin əvvəlində və sonunda oxu testinə məruz qalan ibtidai sinif şagirdləri arasında musiqi təhsili alanların təhsil almayanlara nisbətən daha yaxşı nəticələr əldə etmişdir. Musiqi təhsilinin müsbət təsiri oxumaqla yanaşı öyrənmə və yaradıcılıqda da özünü göstərir.





## Musiqi:

- Bu, özünü ifadə etmək qabiliyyətini və yaradıcılıq həzzini artırır.
- Estetik hissi yaxşılaşdırır.
- Ritmik inkişafı təmin edir.
- Səs və dil inkişafına töhfə verir.
- Mücərrəd düşüncəyə kömək edir.
- Sosial və qrup bacarıqlarını təmin edir.

Bir sözlə, musiqi təhsili tədqiqat nəticələrinə əsaslanaraq oxumaq, mücərrəd düşünmə qabiliyyəti və yaradıcılıq daxil olmaqla idrak bacarıqlarının inkişafına dəstək verir.

## Valideyn uşağın musiqiyə olan marağını necə duya bilər?

Uşağı musiqi ilə tanış etmək üçün, ilk növbədə, müəyyən proqram çərçivəsində hərəkət etmək lazımdır. Məsələn, evdə vaxtaşırı televizor əvəzinə musiqi dinləmək, uşağı müxtəlif konsertlərə aparmaq bura aiddir. Klassik musiqi ilə yuxuya dalmaq uşaqda musiqi marağının inkişafını da təmin edir. Lakin bütün bunları edərkən uşağı kəşf etmək və hansı musiqi növünə daha çox maraq göstərdiyini müəyyən etmək lazımdır.

Ədirnədə bir zamanlar ruhi xəstəliklərin müalicəsində istifadə edilən musiqi, emosional boşalma və rahatlama təmin edərək uşağın gərginliyini azaltmaqla yanaşı, müalicəvi funksiya yerinə yetirirdi.

Bu səbəbdən valideynlər uşağı musiqiyə həvəsləndirməli, digər tərəfdən də onun marağına uyğun istiqamətləndirməyə çalışmalı, maraqlandığı musiqi alətində ifa etməyə sövq etməlidirlər.

İbtidai sinif uşaqlarımızın gündəlik həyatlarında monotonluğu aradan qaldırmaq, fiziki və əqli sağlamlıqlarını qorumaq üçün onları müxtəlif fəaliyyətlərə yönəltmək lazımdır. Uşaqlarımıza olan təzyiqlərin mütəmadi olaraq bədii fəaliyyətlə, o cümlədən musiqi ilə yüngülləşməsi təmin edilməlidir. Musiqi insan həyatında əvəzolunmaz bir hadisədir. Öyrənmə isə fərdin davranışını dəyişdirən bir prosesdir. Musiqi təhsilinin məqsədi uşaqlarımızın sənətin bu mühüm cəhətini yetərincə dərk etmələrini təmin etmək və onların davranışlarında müsbət dəyişikliklər yaratmaqdır.

Uşaqların rəssamlıq dərslərində boyalarla sərbəst şəkildə rəsm çəkmələri təmin edilməli, qafiyələri, xalq mahnılarını, bütün bədəni ilə hərəkət edə bildikləri mahnıları musiqi dərslərində oyunlarla birləşdirilərək oxumağı bacarmalıdırlar.

Uşaqlar hər cür materiallardan əldə etdikləri səsləri istifadə etməli, sınamalı və öyrənməlidirlər. Uşaqların melodik anlayışları böyüklərinkindən fərqlənir və böyüklərin standartları ilə qiymətləndirilməməlidir. Məktəbəqədər uşaq ilk növbədə səslərlə maraqlanır. Musiqi uşağın həyatının bir hissəsi olmalıdır. Musiqi uşaqlar üçün bir dil olacaqsa, onlar bundan istifadə etməlidirlər.

## Musiqinin uşaq inkişafına töhfəsi:

Musiqi təhsilinə kömək edən bir çox prinsipləri qeyd etmək olar. Bu prinsiplər uşağın necə böyüdüyünə, inkişaf etdiyinə və öyrəndiyinə əsaslanır. Bu prinsiplər musiqi tədbirlərinin təşkilində faydalıdır. Öyrənmə fərdin davranışını dəyişdirən bir prosesdir. Bu prosesdə fərd öz məqsədlərinin mənasını və dəyərini dərk edir.

Musiqi həyatımızın vacib rənglərindən biridir. Onsuz həyatı təsəvvür etmək çətindir. Musiqi uşaqlar üçün olduğu qədər böyüklər üçün də vacibdir.

*Ayşən Vəli*

# "Makron Paşinyanın vasitəsi ilə Putindən qisas almağı düşünür"

Sergey Markova görə, Emmanuel Makron qeyd edib ki, əgər Rusiya KTMT üzvü olaraq Ermənistanın tərəfindən Azərbaycana qarşı döyüşmək istəmirsə deməkdir ki, bu Paşinyanın Qərbə tərəf istiqamət alması üçün yaxşı fürsətdir. Belə ki, onun özü də bunu istəyirdi. "Fransa prezidenti Emmanuel Makron rus ordusunun fransız silahlı qüvvələrini Malidən və Mərkəzi Afrika Respublikasından sıxışdırıb-çıxarmasına görə Rusiya prezidenti Vladimir Putindən intiqam almağı planlaşdırır". SİA xəbər verir ki, bu barədə Ukraina.ru-ya Siyasi araşdırmalar institunun direktoru, politoloq Sergey Markov bildirib.

**Rusiyalı politoloq: "Makron Ermənistanın baş naziri Nikol Paşinyandan istifadə etməklə KTMT-də böhran yaratmağa cəhd edir"**



"Makron Vladimir Putindən Maliyə, MAR-a və Burkina-Fasoya görə qisas almaq istəyir, çünki Rusiya "Vaqner" muzdlularının yardımı ilə fransız silahlı qüvvələrini sıxışdırıb-çıxarıb. Bunun müqabilində Fransanın prezidenti cavab olaraq Rusiya hərbçilərinin Ermənistandan çıxaracağını düşünür", deyə rusiyalı politoloq bildirib. Markovun sözlərinə görə, Fransanın dövlət başçısı Ermənistanın baş naziri Nikol Paşinyandan istifadə etməklə KTMT-də böhran yaratmağa cəhd edir: "O (Makron) qeyd edib ki, əgər Rusiya KTMT üzvü olaraq Ermənistanın tərəfindən Azərbaycana qarşı döyüşmək istəmirsə deməkdir ki, bu Paşinyanın Qərbə tərəf istiqamət alması üçün yaxşı fürsətdir. Belə ki, onun özü də bunu istəyirdi".



***Rövşən***

**BAXIŞ BUCAĞI**

# Sən ki gözəl deyilsən...

Gözəllik elə bir anlayışdır ki, onu dilinə gətirən zaman gözlərin önündə yalnız gözəl olan şeylər canlanır. Və yaxud gözəllik elə bir görüntüdür ki, onu görən kimi munis duyğular ruhuna hakim kəsilir. Odur ki, biz insan övladı gözəl olmaq, gözəl görünmək istəyirik. Əksər hallarda gözəl sözlər danışmasaq da, lakin gözəl görünməyi çox istəyirik. Hansı ki, gözəl görünməklə gözəl danışmağın harmoniyası dünyanı xilas etmək iqtidarındadır. Belə isə həm gözəl görünək, həm də gözəl danışaq. Gözəl danışmaq da, gözəl görünmək də öz əlimizdədir. Danışmaq istəsək, danışarıq. Ağzımızı açmağımızla hər kəsi o gözəlliyin tamaşaçısına çevirə bilərik.

Bəs gözəl görünmək necə? Bəli, bu da bizim öz əlimizdədir. Sadəcə nə etməli olduğumuzu bilməliyik. Təəssüf ki, gözəl görünmək üçün bəzən elə səhvlərə yol veririk ki, o bizim gözəlliyimizə yox, çirkinliyimizə, xoşagəlməz görüntü almağımıza gətirib çıxarır. Bu səbəbdən də gözəlliyimizi belə qurbanlara çevirməyək...

### Allahın yaratdığı bəndə

Bəli, hər kəs Allahın yaratdığı, yer üzərinə gəlməsini əmr etdiyi bəndədir. Allahın məsləhəti ilə gözəl, yaraşıqlı da yarana bilirik, bir qədər əksinə də. Lakin çirkin insan yoxdur, gözəllik insanın daxilindədir, deyimləri ilə çox razılaşıram. Həqiqətən də çirkin insan, xüsusilə də qadın yoxdur. Lakin baxımsız qadın, həmçinin də kişi var. Yoxsa hər kəsin gözəl bir tərəfi var. Həm xarici görünüşdə, həm də danışıqda.

Lakin zamanla nədənsə biz öz gözəlliyimizlə, Allahın bizə məsləhət bilib bəxş etdikləri ilə kifayətlənmirik. Belə ki, dünyamızın müasirləşməsi bəlli məsələdir. İllər bir-birindən fərqli gəlir. Həyatımıza yeniliklər daxil olur. Texnologiyalar inkişaf edir, tibb elmi inkişafın zirvəsinə qalxır. Bütün bunlar isə insan həyatından təsirsiz ötmür. Texnologiyanın inkişafı ilə hələ illər öncə insanlar bütün dünya ilə tanış oldular. Dünyanın yeniliklərini bir anın içindəcə evlərinin içərisinə, əllərindəki telefonlara gətirdilər. Beləliklə də bütün dünyada olanlarla, tibbi, kosmetik yeniliklərlə, mümkünsüz olmayanların hər biri ilə tanış oldular. Və bir də gördük ki, həmin yeniliklərin hər biri, budur ölkəmizdə, qapımızın ağzındadır. Biz nə etdik? Başladıq həmin yeniliklərdən istifadə etməyə. Başladıq Allahın bizə məsləhət bilib verdiyi orqanlarımıza düzəlişlər etməyə. Söhbət estetik əməliyyatlardan və kosmetik toxunuşlardan gedir.

Bəzi insanlar, əsasən də orta yaş qrupunda olanların əksəriyyəti bu fikirdədirlər ki, Allah səni necə yaradıbsa, ömrünün sonunadək o cür də qalmalısan. Daha doğrusu, necə doğulmusansa, elə də ölməlisən. Lakin



çoxları da bu fikirdə deyil. Çünki indi mümkün olanların heç biri əvvəlki illərdə mümkün deyildi. Onlar da həmin mühitdə yaşadıqları üçün indiki mümkünlərlə barışa bilmirlər. Lakin eybəcər bir burun bir qızın taleyinə mənfi təsir göstərirsə, onunla heç kim bu görüntü üçün ailə qurmursa, o burnu əməliyyatla formaya salıb həmin qızın həyatındakı maneəni aradan qaldırmaq heç də pis iş deyil.

İstər qız, istərsə də oğlan olsun, sızanaqla dolu üzü ilə insanlardan utanır, çəkinir, çox halda depressiyaya qapılır. Bünu aradan qaldırmaq üçün müəyyən kosmetik müalicələr əgər yaxşı nəticə verirsə, o sifət nə üçün əvvəlki kimi qalmalıdır?

Saçlarımızdakı kəpək və yaxud başımızın hansısa bir hissəsində keçəlləşmə bizi utandırırsa, nə üçün onu aradan qaldırmayaq. Və yaxud da mümkün olan təqdirdə üzümüzdəki qırışlardan nə üçün yaxa qurtarmayaq? Düşünürəm ki, oxucularımız da bizimlə razılaşar ki, bəli, bütün estetik əməliyyatlar və kosmetik toxunuşlar lazımdır, bəzi halda isə vacibdir. Lakin məsələnin digər tərəfi- lazımsız əməliyyatlar, gərəksiz dolğular qətiyyən lazım deyil. Bu, birinci, insan sağlamlığına ziddir. İkinci, uğursuz olma təhlükəsi var ki, bizi gülünc vəziyyətə sala bilər. Belə olanda biz Allah bəndələrini nə gözləyir?..

### Bəndə düşən Allah bəndələri

Beləliklə də biz Allahın bəndələri ola-ola işini bacarmayanların, işinin sahibi olmayanların bəndinə düşürük. Özümüzü çirkin bilib gözəlləşdirməyə çalışdığımız təqdirdə böyük vəsait sərf etməyimizə baxmayaraq əvvəlkindən də bərbad vəziyyətə düşürük. Məsələn, qarşılaşdığım faktlardan bir neçəsi haqqında danışmaq istəyirəm. Yaxın tanışlarımızdan birinin qızının burnu anadangəlmə xoşagəlməz vəziyyətdə idi. Bütün qohumlar, yaxınlar qızın valideynlərinə məsləhət bildilər ki, bu burun hökmən əməliyyat olunmalıdır. Çünki qız burnundan utanır, xəcalət çəkirdi. Böyüdükcə tamamilə özünə qapılırdı. Sual olunur, əgər yaşadığımız dövrdə bu, mümkündürsə, həmin qızı depressiyadan çıxarmaq olarsa, nə üçün olmasın ki? Bunu onun valideynləri də qəbul etdilər və övladlarının burnunun əməlyyat olunmasını planlaşdırdılar. Beləliklə qız əməliyyat olundu, lakin nəticə yaxşı olmadı. Əməliyyatı məşhur həkimlərdən birinin etməsinə baxmayaraq əvvəlki burunla yeni burun arasında azacıq fərq hiss olundu. Deməli, bu işdə heç də bütün həkimlərə ümid etmək olmaz. Onlar lazım olan məbləği yaxşı almağı bacarır, lakin gördükləri işin pis nəticəsini bizlə bağlayırlar: ay nə bilim dəridə, ay nə bilim sümükdə problem var, nə edim, belə alındı.

Və yaxud, bu günlərdə küçədə bir qadın-



la rastlaşdım. Təsadüfən başımı qaldırıb üzünə baxanda, "Bismillahir rəhmanir rəhim",- dedim. Elə xoflandım ki, bədənim əsməyə başladı. Qadının dodaqları üzünün dörddə iki hissəsini əhatə edirdi. Bir anlığa düşündüm ki, İlahi, yazıq, buna nə olub belə, görəsən? Lakin daha bir nəzər saldığımda bu dodaqlara dolğu vurulduğunu açıqca anladım. Burada iki variant var: ya qadın dəbdir deyib, özü istəyib dodaqlarını bu günə saldırıb, ya da müraciət etdiyi kosmetoloq -işinin sahibi olmayan kosmetoloq onu bu günə qoyub. Heç inana bilmirəm ki, hansısa bir qadın özünü belə eybəcər vəziyyətə salamağa çalışa. Sadəcə bir qədər dolğu istəyib, lakin düzgün ünvan, düzgün həkim seçmədiyindən bu günə qalıb.

Bu yaxınlarda metroda bir qadınla rastlaşdım. Qaşları kənardan çağırırdı ki, mən uğursuz bir kosmetoloqun uğursuz bir işiyəm. Vallah, mən həyatda elə qaş görməmişdim. Rəngi açıq bənövşəyi idi. Quruluşu da, necə deyərlər, qaşlar kamana dartılmışdı misalı kimi. Bu deyim təbii gözəllərimiz üçün deyilib, düzdür. Gördüyüm bu qaşlar da kamana dartılmışdı, amma ikiqat kamana. Ümumiyyətlə, son vaxtlar bu qaş məsələsi çox dəbdədir. Təsadüfi qadın tapılar ki, öz qaşını daşısın. Əksər qadınlarımız isə saxta qaşlarla özləri üçün gözəllik yaradırlar. Əslində buna gözəllik demək olarsa. Bu qaşların ya rəngində, ya qalınlığında, uzunluğunda elə bir səhvə yol verilir ki, vallah, məəttəl qalırsan. Lakin onu da vurğulayaq ki, uğurlu qaşlar da var. Kənardan heç də saxtalığı hiss olunmayan qaşlar. Belə olan təqdirdə qaşları nazik, əyri-üyrü olan qadınlar belə yaxşı ustalara müraciət edə bilərlər, təbii ki. Lakin necə deyərlər, elə bir dövrə gəlib çıxmışıq ki, indi qaşı gözəl olan da, çirkin olan da, hamı Allahın verdiyini silib, yenisini çəkdirir.

Son vaxtlar ceyrangöz qadınlarla da qarşılaşırıq. Sözün həqiqi mənasında, işini yaxşı bilən həkimlərimiz var, yaxşı da əl işləri var. Amma görünür bütün bunların əksi olan həkimlərimiz də var ki, qadınları bu vəziyyətə salırlar. Bilmirəm bu gözü hara dartırlar, haradan asırlar, lakin baxırsan ki, qaş kama çəkilib, altında da göz onunla birlikdə kamdadır. Bax, burnu anladıq, qırışları, sızanaqları, keçəlliyi də anladıq, gözlərin ceyran gözünə bənzədilməsini anlamaq mümkün deyil axı. Bu göz durub da yerində, niyə onu dartıb kamana çəkməliyik ki. Həm də işini bilməyən həkimin əli ilə. Nəticədə isə gözlərimiz ceyranın yox, zürafənin gözlərinə oxşayır. Bunu niyə edirlər, bilmirəm. Onlara baxarkən adam istər-istəməz öz-özünə bu cümləni söyləmiş olur...

### Sən ki gözəl deyilsən...

Bəli, yuxarıda da qeyd etdik ki, elə ki, texnologiyalar həyatımıza yol açdı, müasirlik qapılarımızı döydü, biz başladıq onlardan yetərincə istifadə etməyə. Həm də ehtiyacımız olduğu və olmadığı halda. Öyrəndiklərimiz və ya başımıza yeridilənlər, sözün həqiqi mənasında, zamanla bir dəbə çevrildi. Bizlər də dəblərə meyilli olduğumuzdan, təbii ki, bunların hər birini böyük həvəs və şövqlə həyatımıza daxil etdik.

Təlabat artdıqca, qadınlarımız öz gözəlliklərini silib yeni bir gözəlliyin ardınca getdikcə, heç bir tibbi təhsili, təcrübəsi olmayan insanlar da bir "obyekt" açıb başladılar insanlara "gözəllik" paylamağa. Yaxşı həkimlərimizdən fərqli olaraq onlar bu prosedurları daha ucuz qiymətə, ucuz preparatlarla etdikləri üçün əksər qadınlarımız onlara müraciət etdi. Nəticə isə bu gün göz qabağında gördüklərimiz oldu. Gördük ki, bu qadın dünən bu günkündən daha gözəl, təbii idi. Gördük ki, bu qaş bu qadına əsla yaraşmayıb. Gördük ki, bu burun üçün bu qədər xərc çəkməyə dəyməzmiş, çünki heç bir dəyişiklik olmayıb. Gördük ki, bu dodaqlar ətrafa qorxu saçır. Gördük ki, səhv dolğu bu qadının üzünün bütün mimikasını dəyişib, o bizim tanıdığımız qadın deyil. Gördük ki, bu gözlər heç də ceyranın gözlərinə oxşamır, bilmədiyimiz, qarşılaşmadığımız bir göz formasıdır.

Bütün gördüklərimizin fonunda isə deyə bilərik ki, özünüzü bu vəziyyətə salmayın, əziz qadınlar. Pulunuzu sizi gözəlləşdirən deyil, çirkin görkəmə salan həkimlərə verməyin. Deməyin ki, bu cür qaşlar, bu cür gözlər indi dəbdədir, məndə də olmalıdır. Unutmayın ki, ən yaxşı dəb bizə yaraşandır. İnanın, bəlkə də kimlərsə sizin könlünüzün xoş olması üçün, "ay nə yaman gözəl olmusan",- deyirlər. Lakin inanın kənardan özünüz özünüzə baxsanız "sən ki gözəl deyisən",- deyərsiniz...

Gözəlliyə, gözəlləşməyə doğru həmişə düşünülmüş və düzgün addım atmağınız diləyilə...

***Mətanət Məmmədova***

# YAP xalq-iqtidar vəhdətinin nümunəsi olan mərkəzdir

**Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun Mərkəzi Asiya, Qafqaz və Ural-Volqaboyu Tədqiqat Mərkəzinin elmi işçisi, Avrasiya İşgüzar Əməkdaşlıq Təşkilatının sədri, tarix elmləri namizədi Aleksandr Vorobyov "Caliber" analitik mərkəzinə müsahibəsində regionda gedən proseslər və Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı fikirlərini bildirib. Müsahibəni oxuculrımıza tqdim edirik.**




Bu ay Yeni Azərbaycan Partiyasının 30 yaşı tamam oldu. Bu yubileylə bağlı siyasi, ictimai xadimlər YAP haqda öz fikirlərini qəzetimizdə bildiriblər. İndi isə qəzet rəhbərlərinin fikirlərini oxucularımıza təqdim edirik.

### Əflatun Amaşov, "Xalq" qəzetinin baş redaktoru

Yeni Azərbaycan Partiyası ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik əzminin parlaq və mahir təşkilatlanmış təzahürüdür. Bu partiyanın 30 yaşına çatması, cəmiyyətdə populyarlaşması, qəbul



edilməsi dahi şəxsiyyətin ideyalarının əbədiyaşarlıq təminatıdır. Əminəm ki, hər bir YAP üzvü öz fəaliyyətində bunu əsas götürür, qurumun adını doğraltmaq üçün var gücü ilə çalışır və şübhəsiz, gələcəkdə də çalışacaqdır.

Yeni Azərbaycan Partiyası Heydər Əliyevin Azərbaycançılıq ideologiyasının varislik strukturudur. Bu mənada ona ulu öndərin siyasi davamçısının, Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərlik etməsində qanunauyğun var. Bu gün cənab İlham Əliyev ölkəmizi Heydər Əliyev şəxsiyyətinin ideyalarına sadiqlik ruhu ilə idarə edir, qələbədən-qələbəyə daşıyır. Deməli, böyük liderin uğrunda mücadilə etdiyi, çarpışdığı amallar reallaşır. Bu mənada YAP-ın 30 illik yubiley kimi əlamətdar hadisənin torpaqlarımızın, Qarabağımızın düşmən tapdağından azad olunduğu bir dövrdə yaşanması ilahi ədalətdir.

YAP şanlı keşmişimizin ənənələrini yaşadan, dünənimizə işıq saçan, bu günümüzün firavanlığını, asayişini təmin edən böyük mərkəzdir, saat əqrəbi kimi işləyən mexanizmdir. O, xalq-iqtidar vəhdətinin nümunəsi olan mərkəzdir. Bu mərkəz insanlarımızın nəzərlərində, baxışlarında kifayət qədər oturuşub. Mövcud status əminliklə onu deməyə əsas verir ki, YAP müstəqil Azərbaycanımızın gələcəyinin də partiyasıdır.

Cənab İlham Əliyev başda olmaqla, Yeni Azərbaycan Partiyasının rəhbərliyində təmsil olunanları, bu partiyanın çoxminli üzvlərini 30 illik yubiley münasibətilə ürəkdən təbrik etməkdən, ən xoş arzu və diləklərimi çatdırmaqdan məmnunluq duyuram.

### Akif Aşırlı, "Şərq" qəzetinin baş redaktoru

Yeni Azərbaycan Partiyası Azərbaycanın müstəqilliyinin bərpasından sonra siyasi tariximizdə mühüm rol oynayıb. 27 ildən çoxdur ki, bu partiya müasir dövlət quruculuğu prosesində, cəmiyyətin inkişafında iqtisadi mədəni yüksə-



lişində iştirak edir və cəmiyyətə öz töhfələrini verir. Bu partiyanın sıralarında xeyli sayda cəmiyyətin nüfuz qazandığı cəmiyyətdə nüfuz sahibi olan siyasətçilər diplomatlar iqtisadçılar yetişib və bu insanlar peşəkarcasına bu gün xalqın xidmətçisi rolunda çıxış edirlər.

Bu partiya ölkənin daxili siyasətində mühüm rol oynadığı kimi xarici siyasətində də aktiv rol alır və beynəlxalq münasibətlər sistemində Azərbaycanın mövqeyinin güclənməsində, qorunmasında YAP və onun üzvlərinin fədakarcasına fəaliyyətini biz müşahidə edirik. Partiyanın artıq 30 yaşı tamam olur və bu münasibətlə mən də "Şərq" qəzetinin baş redaktoru olaraq, bir qələm insanı olaraq partiya üzvlərini təbrik edirəm və arzu edirəm ki, bu partiyanın hakimiyyətdə olduğu dönəmdə əldə etdiyi uğurlar və Azərbaycanın 44 günlük Vətən savaşında qazandığı zəfər daimi olsun.

### Elçin Mirzəbəyli, "Xalq Cəbhəsi" qəzetinin baş redaktoru

Yeni Azərbaycan Partiyası (YAP) Azərbaycanın hakim partiyası olmaqla yanaşı, ölkədə çoxpartiyalı sistemin inkişafına, sivil və etimadlı ictimai-siyasi münasibətlərin formalaşmasına töhfə ve-



rən, milli maraqlarımızı, azərbaycançılıq ideyalarını qoruyan və təşviq edən siyasi təşkilatdır, ölkənin və Cənubi Qafqazın ən böyük partiyasıdır.

Partiyanın ölkədə həyata keçirilən siyasi islahatlar prosesinin əsas platformalarından biri kimi çıxış etməsi, YAP-ın ölkəmizdəki çoxpartiyalı sistemin inkişafı ilə bağlı aydın və müsbət təsəvvürlərə malik olduğunu bir daha təsdiqləyir.

Yeni Azərbaycan Partiyasının bütün üzvlərini 30 illik yubileyləri münasibəti ilə təbrik edir, hər birinə möhkəm cansağlığı, ölkəmizin inkişafı yolundakı fəaliyyətlərində uğurlar diləyirəm.

### Yunus Oğuz, "Olaylar" qəzetinin baş redaktoru

YAP-ın Azərbaycan dövlətinin uğurlara imza atmasında xidmətləri əvəzsizdir. Azərbaycanın ictimai-siyasi həyatında, eləcə də ölkəmizin inkişafı, düzgün istiqamətdə idarəçiliyində müstəsna ro-



la malik olan Yeni Azərbaycan Partiyası ötən 30 ildə şərəfli bir yol keçib. Yeni Azərbaycan Partiyasının bu gün də Azərbaycan dövlətinin uğurlara imza atmasında xidmətləri əvəzsizdir. 30 il əvvəl əsası ümummilli lider, mərhum prezident Heydər Əliyev tərəfindən qoyulan Yeni Azərbaycan Partiyası bu gün də Heydər Əliyev ideyaları, ənənələrinə sadiq qalaraq hər ötən il yeni-yeni zirvələrə doğru istiqamət götürür.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Yeni Azərbaycan Partiyasının rəhbərliyinə keçməsindən sonra hakim partiyanın həyatında yeni bir mərhələ başlayıb. Məhz düzgün idarəçilik və düşünülmüş qərarlar, vaxtında atılan addımların nəticəsidir ki, bu gün Yeni Azərbaycan Partiyası regionun da ən güclü siyasi təsisatı rolunu oynayır.

Yeni Azərbaycan Partiyası Prezident İlham Əliyevin rəhbərliyi altında bundan sonra da neçə-neçə zirvələri fəth edəcək, uğurlara imza atacaq. Yeni Azərbaycan Partiyasının 30 illik yubileyini təbrik edir, partiyaya bundan sonra da ölkənin ictimai-siyasi həyatında fəal rol oynamağı, yeni-yeni uğurlara imza atmağı arzulayırıq.

### Aydın Quliyev, "Bakı-Xəbər" qəzetinin baş redaktoru

YAP müstəqillik elan olunandan sonrakı Azərbaycan tarixinin ən uzun dövrünün müəllifidir. YAP-ın yarandığı dövr fərqli idi, qurub-yaratdığı dövr də fərqli oldu.



Cəsarətlə demək olar ki, müstəqil Azərbaycan dövlətinin əsaslarını YAP yaratdı. YAP-ın təsis olunması barədə ictimai çağırışlara müsbət yanaşmaq Heydər Əliyevin ən uzaqgörən addımlarından biri oldu. YAP siyasi partiya kimi yarandı, sonra cəmiyyətin mütləq çoxluğu onu müdafiə etdi. YAP Heydər Əliyevin Azərbaycanı bir araya gətirməsi üçün ən səmərəli mexanizm rolunu oynadl. Tarix sübut etdi ki, şəraitin xüsusiyyətləri baxımından YAP-dan üstün təşkilat strukturu düşünmək və yaratmaq mümkünsüz idi. YAP dövlət quruculuğu yollarında Heydər Əliyevin unikal və alternativsiz layihəsidir.

### Sevinc Seyidova, "Həftəiçi" qəzetinin baş redaktoru

Əsasını ümummilli lider Heydər Əliyevin qoyduğu Yeni Azərbaycan Partiyası Azərbaycanın ictimai-siyasi həyatında bu gün ən aparıcı siyasi qüvvə sayılır.

Partiyanın yaradılması ölkəmiz üçün ən ağır ictimai-siyasi dövrə təsadüf etsə də, məhz ulu öndərin rəhbərliyi ilə ilk gündən etibarən Azərbaycanın dövlət müstəqilliyinin gücləndirilməsi, sosial-iqtisa-



di, mədəni-humanitar və s. sahələrin inkişafında özünəməxsus rol oynayıb.

Bu səbəbdəndir ki, 1992-1993-cü illərin ağır böhran dövründən sonra Azərbaycan xalqı Yeni Azərbaycan Partiyasına daim etimad göstərib. Ona 30 ilə yaxın müddətdir ki, hakim partiya statusunu daşımaq hüququ verib.

Yeni Azərbaycan Partiyası Azərbaycanda siyasi partiya institutunun formalaşdırılmasında da öncül yerlərdən birini tutub. Bu gün ölkəmizdəki qeydiyyatdan keçmiş əksər partiyalarla sivil formada dialoqun təşkili, parlamentdə digər siyasi qüvvələrlə ümummilli məsələlərlə bağlı sağlam işgüzar münasibətlərin formalaşdırılması dövlətimiz üçün mühüm əhəmiyyətə malikdir. Bu məsələlərdə əsas aparıcı qüvvə məhz Yeni Azərbaycan partiyası sayılır.

44 günlük Vətən müharibəsində əldə olunan tarixi zəfərimizin əsas qaynağı sayılan milli birlik və həmrəylik məhz Yeni Azərbaycan partiyasının sədri, Prezident İlham Əliyevin əsəridir. Bu gün də Azərbaycan xalqı Prezidentinə, onun rəhbəri olduğu partiyaya böyük etimad göstərir və inanır.

Yeni Azərbaycan Partiyasını 30 yaşı olması münasibəti ilə təbrik edir, gələcək fəaliyyətlərində uğurlar arzulayıram.

*Elçin Bayramlı*

MÜSAHİBƏ

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği: dövlət müstəqilliyimizin bərpasının 30-cu ili- Azərbaycan dövlətçiliyi müasir mərhələdə" çərçivəsində hazırlanıb.

## Metroda qadının pul kisəsi oğurlanıb

**Bakı metrosunda qadının cüzdanı oğurlanıb. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən məlumat verilib. Bildirilib ki, Metropolitendə Polis Şöbəsinə metronun "Koroğlu" stansiyasında bir qadının çantasından içərisində 200 manat pulu, bank kartı və açarları olan cüzdanının oğurlanması barədə məlumat daxil olub.**



**Polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən Bakı şəhər sakini Rəcəb Mehdiyev müəyyən olunaraq saxlanılıb. Araşdırma aparılır.**

## Yuxu rejiminin pozulması bütün orqanizmdə öz təsirini göstərir

"Yuxu rejiminin pozulmasının əsas səbəblərindən biri psixoloji gərginlik olur. Təbii ki, yuxu ilə insanın əsəb sistemi birbaşa bağlıdır. Xüsusilə isə gecə yuxusu çox önəmlidir. Bəzən insanlar düşünürlər ki, gecə yatmayıb əvəzinə günorta yatdıqda yuxularını ala bilərlər. Lakin bu çox yanlış fikirdir. Çünki gecə yuxusunu heçnə əvəz edə bilməz". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Fidan Nizamova bildirib.

Onun sözlərinə görə, gecə yuxusu zamanı beynin ifraz etdiyi hormonlar, o rahatlıq



hissini gün ərzində başqa bir saatda olan yuxu əvəz edə bilmir: "Gecə yuxusunu tam ala bilməyən insanlar, gün ərzində yorğun, əsəbi və iş fəaliyyətində çox zəif olurlar. Eyni zamanda az da olsa qavramada da ləngimələr müşahidə olunur. Bu zaman isə önəmli olan yuxusuzluğun səbəbidir. Çünki insanın gecə yata bilməməsi əsəb xəstəliyi, psixoloji pozuntular və ya müvəqqəti bir hal kimi qiymətləndirilir. Düzdür bəzən insanlar, xüsusilə də gənclər əyləncə məqsədilə, yəni bilərək yuxusuz qalırlar. Lakin bunu davamlı edərək, adət halına gətirib gecə yuxusundan olmaq orqanizmimiz üçün heç də xeyirli deyil. Ola bilər ki, biz gecə yuxusuz qalmağın fəsadsız olduğunu düşünək. Lakin qətiyyən belə deyil. Gecə yuxusunu almayan insanlarda bu problem gec-tez demək olar ki bütün orqanizm üzrə özünü göstərəcək".

***Səbinə Hüseynli***



## Daşınmaz əmlak qaydaları dəyişir

**Daşınmaz əmlakın dövlət reyestri obyektlərinə dair sərəncam verilməsi haqqında müqavilələrin notariat qaydasında təsdiqlənməsi proseduru dəyişir. SİA xəbər verir ki, bu barədə məsələ Milli Məclisin dünən keçirilən iclasında müzakirəyə çıxarılan Mülki Məcəlləyə təklif olunan dəyişiklikdə əksini tapıb.**

Dəyişikliyə əsasən, daşınmaz əmlak üzərində sərəncam verilməsinə dair notariat qaydasında təsdiq edilmiş müqavilənin informasiya sistemləri vasitəsilə real vaxt rejimində Elektron Hökumət İnformasiya Sistemi üzərindən ötürülmüş elektron nüsxəsi əsasında müvafiq hüquqlar daşınmaz əmlakın dövlət reyestrində dövlət qeydiyyatına alınacaq. Belə müqavilə ondan irəli gələn mülkiyyət və digər əşya hüquqlarının daşınmaz əmlakın dövlət reyestrində qeydiyyatının aparılması üçün ərizə hesab olunacaq. Həmçinin layihəyə əsasən, beh haqqında razılaşma daşınmaz əmlaka sərəncam verilməsi barədə müqavilənin bağlanması ilə bağlı olduqda, notariat qaydasında təsdiq edilməlidir. Daşınmaz əmlaka sərəncam verilməsi barədə müqavilənin bağlanması ilə bağlı beh haqqında razılaşmanın notariat qaydasında təsdiq edilməsi zamanı behi alana münasibətdə Mülki Məcəllənin 225.6-cı maddəsində nəzərdə tutulmuş qaydalar tətbiq ediləcək. Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

***Ayşən Vəli***



## Qvardiola: "Barselona"nın mənə ehtiyacı olsaydı...

"Mançester Siti"nin baş məşqçisi Pep Qvardiola gələcəkdə sabiq klubu "Barselona"ya qayıtmaq niyyətində olub-olmadığı ilə əlaqədar sualları cavablandırıb. Qol.az "Marca"ya istinadən xəbər verir ki, mütəxəssis deyib: "Barselona" ilə heç nə müqayisə olunmur. Kluba lazım olduğumu hiss etsəydim, qayıdardım. Amma bu, belə deyil. Mən gedəndən sonra da komanda qalib gəlməkdə davam edir. Yenidən görüşməyimizə qismət olsa, bu baş verəcək. Amma heç nəyi məcbur etməyə ehtiyac yoxdur".

Qeyd edək ki, Qvardiola 2008-2012-ci illərdə "Barselona"nı çalışdırıb. Bu müddət ərzində klub 2 dəfə Çempionlar Liqasının və 3 dəfə La Liqanın qalibi olub. O, bir neçə gün əvvəl "şəhərlilər"lə müqaviləsini 2025-ci ilin yayınadək uzadıb.

## 51 il əvvəl oğurlanan körpə tapıldı...

51 il əvvəl oğurlanan körpəni ailəsi tapıb. SİA xarici mətbuata istinadən xəbər verir ki, Melissa Highsmith 1971-ci ildə Cənubi Karolinada oğurlanıb. Ailəsinin sözlərinə görə, Melissanı dayəsi oğurlayıb. Belə ki, uşağın anası işlədiyi üçün onu dayə saxlamalı olub. Melissanın 1 yaşı olanda isə körpəni dayəsi qaçırır.

Ailə hüquq-mühafizə orqanlarına müraciət etsələr də, 51 il Melissadan xəbər ala bilməyiblər. Bu ilin sentyabr ayında Melissanın Çarlston ətrafında olması barədə anonim məlumat yayılır. DNT testi ilə Melisanın üzərindəki doğum ləkəsindən onun həqiqətən də 51 il əvvəl oğurlanan qız olduğu təsdiqlənir. Hazırda Melissa qardaşı, bacıları və valideyni ilə birlikdə yaşayır.





## İctimai-iaşə obyektlərində yanğınlar daha çox hansı səbəblərdən baş verir?

Bildiyimiz kimi, ölkəmizdə ən aktual problemlərdən biri də ictimai-iaşə obyektlərində baş verən yanğınlardır. Bəs, bu yanğınlar daha çox hansı səbəblərdən baş verir? Mövzu ilə bağlı SİA-nın sorğusuna Fövqəladə Hallar Nazirliyinin Mətbuat xidmətindən cavab verilib.

Qeyd edilib ki, 2022-ci ilin ötən dövrü ərzində ictimai-iaşə obyektlərində baş vermiş yanğın hadisələrinin təhqiqatının nəticələrinə əsasən sözügedən obyektlərdə elektrik avadanlıqlarının quraşdırılması, texniki istismar qaydalarının pozulması və məişət elektrik cihazlarının istismarı zamanı yanğın təhlükəsizliyi qaydalarının pozulmasından 39, qəsdən yandırma faktlarından 8, sobaların istismarı və düzgün quraşdırılmaması səbəbindən 7, siqaret çəkilməsi zamanı ehtiyatsızlıqdan 2, yanacaqla işləyən məişət cihazlarının istismarı zamanı qaydaların pozulmasından 1, partlayış səbəbindən 1 və digər səbəblərdən isə 3 yanğın faktı qeydə alınmışdır. Statistik rəqəmlərdən göründüyü kimi əsasən yanğın hadisələrinin baş vermə səbəbləri elektrik qurğularının istismarı zamanı yanğın təhlükəsizliyi qaydalarının pozulması hallarının payına düşür.

Xatırlatmaq istəyirik ki, Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydalarının (01-2001) 6.1-ci bəndinin tələblərinə əsasən elektrik qurğuları istehlakçılar tərəfindən elektrik qurğularının istismarı zamanı müvafiq qaydaların və digər normativ sənədlərin tələblərinə uyğun olaraq quraşdırılıb istismar edilməlidir.

***Ayşən Vəli***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**